# QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

YAP

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 206 (6170) 19 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezidentə yazırlar: Xalq Sizi sevir və ürəkdən dəstəkləyir!



Bax 3

## Hikmət Hacıyev: Ermənistan tərəfindən ağ fosfordan geniş şəkildə istifadə olunub



“Burada gördüklərimiz Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosfordan istifadə olunmasının növbəti faktıdır. ANAMA-nın nümayəndəsi tərəfindən ətraflı məlumat verildi. Bundan əvvəl də Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosforlu mərmilərdən istifadə edilmişdi”. SİA xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bir qrup yerli və beynəlxalq jurnalistin Füzuli rayonuna səfəri zamanı bildirib.

Bax 5

## Taha Ayhan: Qarabağla bağlı həqiqətləri müsəlman xalqlar arasında daha geniş yaymalıyıq



*Azərbaycanın zəfərini qeyd etmək, onun haqlı mübarizəsini dəstəkləmək və yanında olduğumuzu göstərmək üçün 56 ölkənin və bütün dünyanın müsəlman gəncliyi olaraq Azərbaycana gəlmişik. Bu gün şəhidləri anmaq, buradakı yaralılara dəstək olmaq, erməni vəhşiliyinə diqqəti yönəltmək üçün burada - Gəncədəyik. Gəncədə mülki vətəndaşlara qarşı törədilən müharibə cinayətlərini şiddətlə qınayırıq.*

Bax 6

## Tarixin zibilliyinin sakinləri



*Azərbaycanın zəfərini qeyd etmək, onun haqlı mübarizəsini dəstəkləmək və yanında olduğumuzu göstərmək üçün 56 ölkənin və bütün dünyanın müsəlman gəncliyi olaraq Azərbaycana gəlmişik. Bu gün şəhidləri anmaq, buradakı yaralılara dəstək olmaq, erməni vəhşiliyinə diqqəti yönəltmək üçün burada - Gəncədəyik. Gəncədə mülki vətəndaşlara qarşı törədilən müharibə cinayətlərini şiddətlə qınayırıq...*

Bax 10

## Hrant-Melik Şahnazaryan: “Nikol, sən düz cəhənnəmə, özü də tək getməli olacaqsan”

*Politoloq Hrant-Melik Şahnazaryan baş nazir Nikol Paşinyanın ölkəni mövcud vəziyyətdən çıxarmaq üçün hazırladığı yol xəritəsinə münasibət bildirib...*





## Beynəlxalq jurnalistlər Füzulidə olub



## Şuşaya yol çəkilir

## Türkiyənin Azərbaycana hərbi qüvvələr göndərməsi ilə bağlı qərarda nə yazılıb?



Bax 6

## Həmsədr ölkə Fransa Ermənistana havadarlıq edir



Bax 14

## Balotelli İngiltərədə oynamaqdan imtina etdi



Bax 16

# "Bizim mübarizəmiz azadlıq, ərazilərin azad edilməsi uğrunda mübarizə idi və mübarizəmiz böyük hərbi və siyasi uğurla başa çatdı"

*Prezident İlham Əliyev Niderlandın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Paulin Eizema dedi:***



-Zati-aliləri cənab Prezident. Bu gün burada olmaq və əlahəzrət Niderland Kralı Villem-Aleksandrın etimadnaməsini Sizə təqdim etmək mənim üçün həqiqətən şərəfdir. O, məndən ölkənizə və xalqınıza ən xoş salamlarını çatdırmağı xahiş etdi.

**Prezident İlham Əliyev:**

-Təşəkkür edirəm. Xoş gəlmisiniz. Belə gətirdi ki, Sizin Azərbaycana gəlişiniz, demək olar, müharibə dövrünə təsadüf etdi. Odur ki, obyektiv səbəblərə görə bizim görüşümüz təxirə salındı. Mənə məlumat verilmişdir ki, siz, demək olar, iki ay bundan əvvəl gəlmisiniz. Əminəm ki, görüşümüzün nə üçün daha əvvəl baş tutmamasını başa düşürsünüz. Lakin əfsuslar olsun, görüşümüz təyin olunanda mənə məlumat verildi ki, ölkənizin parlamenti Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan, Azərbaycanın əleyhinə və həmçinin Türkiyənin əleyhinə olan qərar qəbul etdi. Mənə köməkçim məlumat verdi ki, müzakirələr zamanı Niderlandın xarici işlər naziri daha da balanslaşdırılmış yanaşma ilə çıxış etdi. Odur ki, biz bunu qiymətləndiririk. Lakin parlamentin belə balanslaşdırılmamış və ədalətsiz bir qərarı qəbul etməsi faktı əlbəttə ki, bizə daha yaxın əlaqələr qurmağa kömək etməyəcək. Əvvəla, dünən bu qərarın qəbul olunması faktını nəzərə alaraq demək istəyirəm ki, Ermənistan bizə hücum etdi. Biz özümüzü müdafiə edirdik və bunun nəticəsində biz beynəlxalq hüququn norma və prinsiplərinə əsasən və tarixə əsasən özümüzə məxsus olan əraziləri azad edə bildik. Bizim mübarizəmiz azadlıq, ərazilərin azad edilməsi uğrunda mübarizə idi və mübarizəmiz böyük hərbi və siyasi uğurla başa çatdı. Sizin də bildiyiniz kimi, noyabrın 10-da müharibəyə son qoyan üçtərəfli bəyanat imzalanmışdır. Buna görə mənə çox qəribə gəldi ki, bundan sonra - Ermənistanın kapitulyasiyası olan bu bəyanatı onun özü imzaladıqdan sonra regionumuzdan uzaqda yerləşən bir ölkədə belə bir qərar qəbul edildi. Yəqin siz də bilirsiniz ki, regional ölkələr bu bəyanatı dəstəkləyiblər. Bütün qonşularımız bu bəyanata dəstəyini ifadə ediblər. Qonşularımızdan ikisi - Rusiya və Türkiyə azərbaycanlıların və ermənilərin təhlükəsizliyini təmin edəcək əməliyyatlarda iştirak edəcək. Odur ki, hesab edirəm, başqa tərəfdənsə bizim tərəfimizdə olmağınız daha ədalətli olardı. Yəqin ki, siz atəşkəsi dəstəkləyən ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının şərhlərini də eşitmisiniz. Buna görə də mən başa düşürəm, parlamentarilərin öz gündəliyi var. Bəzən onların öz istəkləri olur, bu, başadüşüləndir. Parlamentin qəbul etdiyi qərardan ola bilsin, fərqli olan ölkənizin hökumətinin də öz mövqeyinin olduğunu başa düşürəm. Lakin bunun nə üçün baş verməsini bizim xalqımıza izah etmək çətin olacaq. Buna görə də parlamenti belə qərar qəbul edən ilk ölkənin nə üçün Niderland olduğunu insanlar sizdən soruşduqda bu vəziyyətlə üzləşməli olacaqsınız. Praktiki baxımdan, bunun yerdəki vəziyyətə birmənalı şəkildə heç bir təsiri olmayacaq. Vəziyyət indi sabitləşir. Belə bir günü demək olar ki, otuz ildir gözləyən bizim qaçqın və məcburi köçkünlərimiz bu böyük hərbi və siyasi qələbəni qeyd edirlər. Onlar özlərinin qayıdışı üçün vaxt cədvəlini görməyi səbirsizliklə gözləyirlər. Amma bu, vaxt aparacaq, çünki təcavüzkar demək olar ki, hər şeyi dağıdıb. Bu videolar bizim televiziyada nümayiş olunur. Bu dağıntı bəlkə də bizim xalqımıza, mədəni, dini irsimizə, bəşəriyyətə qarşı qəddarlığın, vandalizmin və barbarlığın nadir formasıdır. Ermənistanın müharibə zamanı davranışı həm də onların rəhbərliyinin qeyri-insani münasibətini göstərir. Çünki münaqişə zonasından uzaqda yerləşən dinc şəhərlərə Ermənistan ərazisindən ballistik raketlərlə hücum etmək müharibə cinayətidir. Kasetli və fosforlu bombalardan istifadə etmək müharibə cinayətidir. Bütün beynəlxalq media və QHT-lər bunu təsdiq etdi. Mən təəssüf edirəm ki, söhbətimizə bununla başlamalı oldum. Bu, ancaq onunla əlaqədardır ki, bizim görüşümüz iki gün əvvələ təyin olunmuşdu və sizin parlamentin qərarı ondan sonra qəbul edilib. Bundan başqa mən nə deyə bilərəm? Bir daha deyirəm, bunu izah etmək asan olmayacaq. Bu, həmçinin sizin hökumətinizin, xarici işlər nazirinizin mövqeyindən asılı olacaq. Biz bununla bağlı onların şərhlərini gözləyirik. Çünki mənim köməkçim mənə deyib ki, müzakirə zamanı şərhlər olub, lakin biz şərhləri indi, bu qərar qəbul olunandan sonra gözləyirik. Sözsüz ki, biz Avropa Komissiyasından şərhlər gözləyəcəyik. Bildiyiniz kimi, Avropa Komissiyası və Azərbaycanın çox geniş əməkdaşlıq gündəliyi var. İki il əvvəl biz Brüsseldə Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını tam dəstəkləyən "Tərəfdaşlıq prioritetləri" sənədini parafladıq. Azərbaycan öz ərazisində döyüşürdü, öz ərazi bütövlüyünü bərpa edirdi və bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Avropa İttifaqı ilə Azərbaycan tərəfindən paraflanmış sənədə uyğundur.



Sizə yaxşı vaxt keçirməyi arzulayıram. Ümidvaram ki, tariximizdəki çox da xoşagəlməyən bu səhifə münasibətlərimizə ciddi ziyan vurmayacaq. Lakin əlbəttə ki, bu, sizin hökumətinizin və müvafiq olaraq davranacaq bizim hökumətimizin sonrakı addımlarından asılı olacaq. Bir daha xoş gəlmisiniz.

**Səfir Paulin Eizema:**

-Çox sağ olun, cənab Prezident. Qeyd etdiyiniz kimi, mən buraya sentyabrın 20-də, münaqişə yenidən başlayandan bir həftə əvvəl gəlmişəm. Bu, çox narahat dövr, lakin həm də mənə münaqişənin mənbələrinin nədən ibarət olduğunu çox yaxşı başa düşməyə imkan verən zaman idi. Eyni zamanda, mən bununla bağlı paytaxtımla çox sıx şəkildə əlaqə saxladım. Qeyd etdiyiniz kimi, mənim hökumətimin mövqeyi çox balanslaşdırılmışdır. Mən bunu yüksək qiymətləndirirəm. Bu, təhlilin, müzakirələrin və yaxşı dialoqun nəticəsində olub. Mən bir daha vurğulamaq istərdim ki, mənim hökumətimin mövqeyi Avropa İttifaqının mövqeyinə çox uyğundur və çox balanslaşdırılmışdır. Biz münaqişəni izlədik, baş verənləri gördük və münaqişənin hər iki tərəfdə nələrə səbəb olduğu bizi hər zaman çox narahat edir. Bizim sistemdə fərqlilik var. Hökumətin mövqeyi var, parlamentin mövqeyi var və bu, dialoq tələb edir. Bu dialoq bir neçə dəfə baş tutdu və biz qeyd etdik ki, hökumətin balanslaşdırılmış mövqeyinin heç də həmişə parlamentin mövqeyi ilə eyni olması demək deyil. Ötən həftə nazirlə parlament arasında keçirilmiş sonuncu müzakirədə bu məsələlər də qaldırılmışdı. Nazir həm yazılı, həm də şifahi şəkildə israrla bildirdi ki, qaldırılan bu məsələlər mənim hökumətimin mövqeyinə uyğun deyil. Beləliklə, sanksiyalar və bu kimi məsələlər qətiyyən gündəlikdə deyil. Hazırda bu, aktual deyil, bununla bağlı hər hansı sual, müzakirə ola bilməz. Mənim nazirim bunu həm parlamentdə, həm də yazılı formada çox açıq şəkildə bildirib. Şadam ki, bunu burada yenidən təkrarlaya bilirəm.

Prezident İlham Əliyev Niderland Kralı Villem-Aleksandrın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderland Kralına çatdırmağı xahiş etdi.

# Prezidentə yazırlar: Xalq Sizi sevir və ürəkdən dəstəkləyir!





***Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadən həmin məktubların bəzilərini təqdim edir:***

### Fuat Aytandan, İstanbul, Türkiyə

Hörmətli cənab Prezident.

Mən bir türk vətəndaşı kimi ata dediyim Azərbaycanla, Sizinlə, ölkənizlə, dövlətinizlə, əsgərinizlə qürur duyuram.

Var olun, sağ olun, müzəffər Ali Baş Komandan!

Ata-baba yurdumun yerləşdiyi torpaqların işğaldan qurtulması məni xoşbəxt etdi.

Azərbaycan üçün nələr edə biləcəyimi bilmirəm. Bir evim, bir az da pulum var. Lazım olsa, onları böyük məmnuniyyətlə Azərbaycanın gələcəyi üçün fəda etməyə hazıram. İnşallah, azad olunmuş torpaqları ziyarət etmək, həmin torpaqları öpmək arzum da həyata keçər.

Sizin kimi müzəffər Ali Baş Komandanın qarşısında baş əyirəm.

### Hakan Yağmurdan, Antalya, Türkiyə

Hörmətli cənab Prezident.

Qarabağın azadlığı üçün göstərdiyiniz əzmkarlıq, qətiyyət və cəsarət Azərbaycan xalqı kimi bizi də qürurlandırdı.

Sizi kimi qardaşlarımız olduğu üçün biz xoşbəxtik. Azərbaycan xalqı isə Sizin kimi Lideri olduğuna görə xoşbəxtdir. Və hamımız ona görə xoşbəxtik ki, eyni qanı daşıyır, eyni tarixə malikik, ürəklərimiz eyni həyəcanı paylaşır.

Mən Türkiyə Respublikasının vətəndaşı olaraq ən səmimi hisslərlə bildirirəm ki, canımızla, qanımızla Sizlərin yanında olmaqdan qürur duyuruq.

Heç bir qarşılıq gözləmədən hər zaman Azərbaycan xalqının yanındayıq. Bütün cəbhələrdə Sizinlə çiyin-çiyinə dayanmaq, əlimizdən gələni etmək bizim borcumuzdur.

Sizə və Azərbaycan xalqına sonsuz sevgi və ehtiramımı çatdırmaq istəyirəm. Unutmayaq ki, bizlər bazara qədər deyil, məzara qədər qardaşıq.

Zəfər Azərbaycan xalqınındır!

### Emil Cəfərovdan, Omsk, Rusiya

Müzəffər Ali Baş Komandan.

Sizi Rusiya Federasiyasının Omsk şəhərindən salamlayıram. Bu məktubu yazmaqda məqsədim bir Azərbaycanlı kimi öz səmimi duyğularımı Sizə bildirməkdir.

Əziz Prezidentim, xarici dövlətdə yaşamağımıza baxmayaraq uzun illər boyu Rusiya Federasiyasında məskunlaşan mənfur qonşularımızın vətəndaşları ilə qarşılaşdıqda içimdən utancverici bir hiss keçirdi, bu hissin adı Qarabağ idi. Əslində bu hissləri hər bir Azərbaycan vətəndaşı yaşayıb. Mən bu hissləri büruzə verməsəm də, düşmənə hiss etdirməsəm də qəlbimdə böyük əzab çəkirdim. Qarabağda itirilmiş torpaqlarımız, qətlə yetirilmiş vətəndaşlarımız, körpələr, qocalar, bacı və qardaşlara edilmiş zülmlər bizi çox sarsıtmışdı. Nəhayət o gün yetişdi. 2020-ci il sentyabrın 27-dən etibarən hər şey dəyişdi. İşğalda olan şəhər, rayon, qəsəbə və kəndlərimizin Ordumuz tərəfindən ard-arda azad edilməsi xəbərlərini verdiyiniz hər çıxışınızı səbirsizliklə gözləyirdik. 30 ildən sonra üzümüzə təbəssüm bəxş etdiniz, əzmkarlıq hissini yaşatdınız. Böyük işlər gördünüz, ölkəmizi dünya səviyyəsində təmsil etdiniz. Dünyaya sübut etdiniz ki, biz birlikdə güclüyük. Azərbaycan xalqı Sizinlə qürur duyur, hər zaman yanınızdayıq. Şəxsən öz adımdan və Omsk vilayətində yaşayan bütün azərbaycanlılar adından 2020-ci il noyabrın 10-da böyük Qələbə sevincini bəxş etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram. Yaşasın xalqımız və şanlı Ordumuz! Vətən uğrunda şəhid olmuş bütün qardaşlarıma Allahdan rəhmət, ailələrinə səbir diləyirəm.

Qarabağ Azərbaycandır!

### Ömər Cengizhanoğlu və başqalarından, Bolu, Türkiyə

Hörmətli cənab Prezident.

Sizi uca Alalhın adı ilə salamlayır, gözəl Türkiyəmizdən, türk xalqının adından sevgi və ehtiramımı bildirirəm.

Zəfəri zəfərə calamaqla tarixə düşən Azərbaycan Ordusunu səmimi qəlbdən təbrik edir, hər əsgərin alnından öpürük. Çanakkale, Sakarya döyüşləri ilə türk və dünya tarixinə qızıl hərflərlə yaxan türk ordusunun qardaşı olan, ermənilərə tarixi dərs verən Azərbaycan Ordusu bu gün cəbhədən Qələbə ilə qayıdır.

Bir yumruq kimi birləşmiş Azərbaycan Ordusu qazandığı qələbələrlə ulu öndər Heydər Əliyevin və minlərlə şəhidin ruhlarını şad etmişdir.

Dəyərli Prezidentimiz, bütün sahələrdə apardığınız uğurlu siyasətlə tarixə ad salmış türk fatehlərinin davamçısı olduğunuzu dünyaya göstərdiniz.

Mən təqaüddə olan müəlliməm. İnşaat mühəndisi olan və Gülhanə Tibb fakültəsində oxuyan oğlumla birlikdə Azərbaycan Ordusu üçün əlimizdən gələn köməyi etməyə hazırıq.

Dünyanın hələ də unutmadığı Çanakkale zəfərindən sonra Sizlər Qarabağ zəfərini tarixə yazdınız. Bütün türk xalqları Sizin bu qəhrəmanlığınızı unutmayacaqdır.

Heç şübhəm yoxdur ki, Qarabağdan zəfərlə dönən şanlı Azərbaycan Ordusu əsl qəhrəmanlar kimi qarşılanacaq. Onlara bir daha Azərbaycan xalqına və bizlərə yaşatdıqları sevinc və xoşbəxtliyə görə minnətdarlıq bildirirəm. Qarabağın azad olunması münasibətilə keçiriləcək şənliklərdə iştirak etmək ümidi ilə müraciətimi ən ülvi hisslərimi ifadə edən sözlərlə bitirmək istəyirəm:

Salam olsun qızıl qəlbli rəhbərimiz İlham Əliyevə!

Salam olsun Qarabağ yolunda dastan yazan şanlı Azərbaycan Ordusuna!

Salam olsun ordusu ilə milli birlik göstərən qardaş Azərbaycan və türk xalqlarına!

*Ardı Səh. 4*

# Prezidentə yazırlar: Xalq Sizi sevir və ürəkdən dəstəkləyir!



Əvvəli-Səh-3

**Elxan Şabanovdan, Zaqatala, Azərbaycan**

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Noyabrın 8-də Siz Şuşamızın alınması xəbərini verməklə xalqımıza qələbə sevincini yaşatdınız. Otuz illik böyük bir yükü çiyinləri üzərində gəzdirən, ağrıdan-acıdan qovrulan xalqımız məhz Sizin sayənizdə indi sevinc, zəfər salnaməsinin himni altında qürurla addımlayır.

Yaşım əlli altını haqlamasına baxmayaraq, bu dəqiqə igid övladlarımızla birlikdə düşmənə qarşı vuruşmağa hazıram.

Allah Sizi və müzəffər Ordumuzu qorusun!

**Tahir Cəbrayılovdan, Gəncə, Azərbaycan**

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Müharibə başlayandan hər gün Sizə məktub yazıb ürək sözlərimi çatdırmaq istəyirdim. Amma böyük günü - Şuşanın işğaldan azad olunması gününü gözləyirdim.

Mən Azərbaycanın bir vətəndaşı olaraq ailəmlə birlikdə həmişə Sizə inanmışıq və güvənmişik.

Yaşasın müzəffər Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu!

Elimin şanlı, qəhrəman oğlu, bu böyük Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

**Dilrubə Behbudovadan, Ağdam, Azərbaycan**

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Əzəli və əbədi torpaqlarımız olan Qarabağın düşmənlərdən azad edilməsi haqqında verdiyiniz əmri eşidəndə çox sevindim. Siz bütün dünyaya bizim xalqın, millətin gücünü və qüdrətini bir daha sübut etdiniz. Mənim bu gün sevincimin hədd-hüdudu yoxdur.

Mənim oğlum Zəngilan rayonu uğrunda gedən döyüşlərdə - 1992-ci ildə itkin düşüb. Zəngilanın işğaldan azad edilməsi xəbərini eşidəndə çox qəhərləndim, çox sevindim ki, oğlumun uğrunda vuruşduğu torpaq alındı, qisası yerdə qalmadı.

Sevimli oğlum, Sizi dünya durduqca yaşayasınız. Siz mənə bu yaşlı vaxtımda bu sevinci yaşatdınız. Allah Sizi və övladlarınızı qorusun. Allah şanlı və qüdrətli Ordumuzu qorusun. Siz biz məcburi köçkünlərin 30 ilə yaxın olan Vətən-torpaq həsrətinə son qoydunuz. Mən ürəyimdən gələn xoş arzuları Sizə çatdırmağı özümə borc bilirəm. Arzu edirəm ki, bütün Qarabağ torpaqlarımız düşmən işğalından tamamilə azad olunsun, Azərbaycanımızın bütövlüyü təmin edilsin və mən Sizi öz torpağımda - Ağdamda öz evimdə çay süfrəsinə qonaq edim. Mən Sizin sözlərinizi çox böyük fəxrlə təkrar edirəm: Qarabağ Azərbaycandır!

**Sayad Cəbrayılovadan, Bakı, Azərbaycan**

Hörmətli Cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Torpaqlarımızın işğaldan azad edilməsinə çox sevinirik. Qarabağımızın 30 illik işğalına son qoyuldu. Qazandığınız hərbi-siyasi uğurlarla qürur duyuruq. Allah Sizi, Ordumuzu və millətimizi qorusun. Şəhidlərimizə Allah rəhmət eləsin. Şəhid analarının qarşısında baş əyirəm. Ümummilli Qələbə təbrikləri Sizindir. Qarabağ Azərbaycandır!

**Nilay Cahangirlidən, Beyləqan, Azərbaycan**

Möhtərəm cənab Prezident.

Mənim adım Nilaydır. 10 yaşım var. Mən çox xoşbəxtəm, çünki Sizin komandanlığınız altında torpaqlarımızı geri aldıq. Sizin kimi Prezidentimiz olması ilə, azərbaycanlı olmağım ilə fəxr edirəm. Mən bilirdim ki, Azərbaycan Ordusuna qarşı heç bir ordu qalib gələ bilməz. Mən və ailəm hər zaman Sizə dəstəyik. İnşallah tezliklə bütün həmyerlilərimiz öz ata-baba yurdlarına geri dönərlər. Qələbəmizə görə Sizə təşəkkür edirəm. Sizi və ailənizi də bu qələbə münasibətilə təbrik edirəm.

Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Ali Baş Komandan!

**Natiq Məmmədovdan, Naftalan, Azərbaycan**

Müzəffər Ali Baş Komandan.

Mən bu məktubu Sizə fəxrlə, dolu ürəklə və göz yaşı ilə yazıram. Şuşa şəhərinin azad edilməsi bu hissləri keçirməyimə səbəb oldu. Öncə Ulu Öndərimizin ruhu qarşısında baş əyirəm. Məhz onun səyi ilə Orduda vahid Ali Komandanlıq yaradıldı, ölkədə hərcmərciliyə son qoyuldu. Əldə olunmuş uğurlar gələcək böyük Qələbənin təməlini qoydu. Siz də atanız kimi cəsarətli siyasət yürüdərək Ordumuzu gücləndirdiniz, onun siyasətini davam etdirərək Vətən müharibəsində bu uğurlara nail oldunuz.

Allah Sizi heç vaxt Azərbaycan Respublikasının Ali Baş Komandanlığından əskik etməsin! Daim ölkəmizin qoruyucu mələyi olasınız.

**Brilyant Quliyevadan, Şəmkir, Azərbaycan**

Hörmətli Prezidentimiz cənab İlham Əliyev.

Hamımıza məlumdur ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik bir ölkədir. Xalqımızın tarixdə üzləşdiyi ən böyük fəlakətlərdən biri XX əsrin 90-cı illərinin əvvəlində mənfur düşmənlərimiz olan ermənilər tərəfindən işğala, soyqırımları və vəhşiliklərə məruz qalmasıdır. İki əsrdir torpaqlarımız yadellilərin işğalına məruz qalmış, zaman-zaman torpaqlarımız işğal olunmuşdu.

Cənab Prezident, bu gün mən özümü xoşbəxt sayıram. Siz müdrik və uzaqgörən siyasətinizlə Azərbaycan xalqına şərəfli bir tarix yaşatdınız. Azərbaycan xalqının bu günü və xoşbəxt gələcəyi naminə yorulmadan çalışdınız. Xalq Sizi sevir və ürəkdən dəstəkləyir.

Hörmətli Prezidentimiz, müzəffər Ali Baş Komandanımız, Sizə Kəlbəcər, Şuşa dağları, Zəngilan, Laçın çinarları kimi ucalıq, uzunömürlülük arzulayıram.

**Məlahət Cəfərovadan, Füzuli, Azərbaycan**

Müzəffər Ali Baş Komandan,

Sizin rəhbərliyinizlə doğma torpaqlarımızın öz həqiqi sahiblərinə - bizə qaytarılması uğrunda başladığımız haqq mübarizəsində Qələbə bizim oldu. Azərbaycan xalqının necə igidlər yetirdiyini bütün dünya gördü.

Qalibiyyəti bizə bəxş edən Sizi və müzəffər Ordumuzu Allah daim qorusun!

Qarabağ bizimdir!

**Telman Hacıyevdən, Ağcabədi, Azərbaycan**

Hörmətli cənab Prezident,

Rəhbərliyiniz altında şanlı Ordumuzun işğal altında inləyən torpaqlarımızı azad etməsi və Vətən müharibəsinin bizim Qələbəmizlə başa çatması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Yorulmaz fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Qarabağımızı bizə qaytaran Müzəffər Ali Baş Komandan, Allahdan Sizə uzun ömür, cansağlığı diləyirəm.

Yaşasın Azərbaycan!

**Elxan Mövlamovdan, Xaçmaz, Azərbaycan**

Müzəffər Ali Baş Komandan,

Azərbaycanın könüllülərindən ilk şəhid Mövlamov Elçinin ailəsi adından Sizə dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun ki, Siz bu böyük Qələbə sevincini bizə yaşatdınız.

Cənab Prezidentimiz! Biz Mövlamovlar ailəsi hər il şəhidimizin anım gününü böyük üzüntü və kədərlə keçirirdik. Lakin bundan sonra oğlumuzu qürurla ana biləcəyik. Çünki Elçinimizin və bütün şəhidlərimizin qanı Siz və rəşadətli Ordumuz sayəsində yerdə qalmadı. Rəbbim Sizi və şanlı Ordumuzu qorusun.

# Hikmət Hacıyev: Ermənistan tərəfindən ağ fosfordan geniş şəkildə istifadə olunub




"Burada gördüklərimiz Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosfordan istifadə olunmasının növbəti faktıdır. ANAMA-nın nümayəndəsi tərəfindən ətraflı məlumat verildi. Bundan əvvəl də Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosforlu mərmilərdən istifadə edilmişdi". SİA xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bir qrup yerli və beynəlxalq jurnalistin Füzuli rayonuna səfəri zamanı bildirib.

Hikmət Hacıyev deyib: "Biz hələ hərbi əməliyyatların gedişində məlumat vermişdik ki, Ermənistan silahlı qüvvələri Şuşa ətrafında meşələri yandırmaq üçün ağ fosfordan geniş şəkildə istifadə edib. Təkcə bu əməliyyatlarda deyil, bundan əvvəlki əməliyyatlarda da - 2016-cı ilin Aprel döyüşlərində də Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosfordan geniş şəkildə istifadə olunub. Onların əsas hədəfi mülki obyektlər və mülki insanlar, əkin sahələri, həmçinin Azərbaycan Silahlı Qüvvələri olub. Bu barədə məlumatlar toplanılır. Beynəlxalq təşkilatlara, o cümlədən kimyəvi silahların qadağan olunması üzrə beynəlxalq təşkilata məlumat veriləcək. Ermənistan ağ fosfordan istifadəni özündə ehtiva edən müvafiq konvensiyalara qoşulmayıb. Ağ fosfor kimyəvi silah hesab edilməsə də, bunun çox böyük zərərverici xüsusiyyətləri var. İnsan orqanizminə daxil olduğu təqdirdə bunun qısa müddətdə ölümə və ciddi yanğıya səbəb ola biləcək təsirləri var".

# Fransız deputat həmkarlarını Dağlıq Qarabağla bağlı səsləndirdikləri fikirlərdə ehtiyatlı olmağa çağırıb



Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına dair çağırış Fransa tərəfindən qəbul edilmiş beynəlxalq və ikitərəfli öhdəliklərə ziddir və buna görə də beynəlxalq hüquqa hörmətlə yanaşanlar tərəfindən qəbul edilə bilməz. Fransa üzərinə BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə bağlı öhdəlik götürüb və hər hansı yeni diplomatik mövqe Dnestryanı (Moldova) və ya Şimali Osetiya (Gürcüstan) kimi bir çox separatçı ərazilərin tanınmasına yol açaraq, ölkəmizin beynəlxalq öhdəliklərinə yenidən dönüşünü doğurur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər fransız deputat Jerom Lamberin Sosialist Partiyasından olan həmkarlarının Dağlıq Qarabağla bağlı fikirlərinə etiraz olaraq ünvanladığı məktubda yer alıb. Məktubda qeyd olunur ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə müəyyən edilmiş beynəlxalq hüquq prinsipləri Dağlıq Qarabağla bağlı məcburi kompasımız olaraq qalmalıdır. Üstəlik bu, son onilliklər boyunca fransız diplomatiyasının dəyişməz mövqeyi olub.

Fransa Sosialist Partiyasının Milli Bürosunda Dağlıq Qarabağda vəziyyətlə bağlı mətnə etiraz edən Jerom Lamber fransız siyasətçiləri ni bir qrup ifratçı ermənin diktəsi ilə oturub-durmamağa, hər hansı bir qərara qəbul edərkən diqqətli olmağa və onun nəticələri haqqında düşünməyə səsləyib. O, eyni zamanda, həmkarlarının Dağlıq Qarabağla bağlı səsləndirikləri fikirlərin Fransanın qəbul etdiyi beynəlxalq və ikitərəfli öhdəliklərə tamamilə zidd olduğunu, eləcə də beynəlxalq hüququn bir neçə prinsipini, xüsusilə sərhədlərin toxunulmazlığı prinsipini pozduğunu diqqətə çatdırıb.

Fransız deputat xatırladıb ki, BMT Dağlıq Qarabağ, eləcə də Ermənistanın 1993-cü ildən işğal etdiyi digər ərazilər də daxil olmaqla, bütün bu torpaqlar üzərində Azərbaycan Respublikasının suverenliyini tanıyıb. Jerom Lamber 1993-cü ilin dekabrında Fransa və Azərbaycan arasında imzalanmış dostluq, anlaşma və əməkdaşlıq müqaviləsinin məğzini də xatırladaraq, bildirib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində müəyyən edilmiş beynəlxalq hüquq prinsipləri Dağlıq Qarabağla bağlı məcburi kompas olaraq qalmalıdır.

O, həmçinin diqqətə çatdırıb ki, Fransa beynəlxalq səviyyədə götürdüyü öhdəliklərə əməl etməli və hətta nüfuzlu erməni mənşəli fransız icmasının təzyiqləri altında olsa da, medianı təhdid etməməli, müvafiq qurumlara, eləcə də seçilmiş məmurlara təzyiq göstərməməlidir.

"Ailə üzvlərimə ölüm hədələri də daxil olmaqla, minlərlə təhqir və təhdid mesajları alıram. Bütün bu təhqir və hədələr mənə Fransa diplomatiyasının mövqeyini xatırlatmaqdan çəkindirmək üçün ünvanlanır", - deyə J. Lamber yazıb. Vurğulayıb ki, bəzilərinin seçki dairələrində erməni icması ilə əlaqələrini bilsək də, Sosialist Partiyası beynəlxalq hüquqa məhəl qoymadan daim millətçi çıxışlar edən ermənilər tərəfindən ələ keçirilməməlidir. "Dünyanın bu bölgəsində və digər bölgələrində Fransanın layiqli diplomatik mövqe tutmasını istəyiriksə, əslində çox ifratçı erməni qrupunun diktə etdiyi nöqteyi-nəzərləri qəbul etməməli və buna diqqət yetirməliyik. Əgər ateşkəs istəmiriksə, onun yerinə nə istəyirik?! Əbədi müharibəmi?", - deyə J. Lamber həmkarlarına səslənib və onları beynəlxalq hüquq çərçivəsində regiondakı insanlar üçün sülh və firavanlığı təmin etməyə çağırıb.

# Türkiyə mediası: Kəlbəcəri tərk edən ermənilər evləri və meşələri yandırırlar


CANLI YAYIN | VİDEO | GÜNDEM | EKONOMİ | DÜNYA | SPOR | ÖZEL VİDEO

Haberler ▸ Dünya Haberleri ▸ Kelbecer'den çekilen Ermeniler bölgeyi ateşe verdi

**Kelbecer'den çekilen Ermeniler bölgeyi ateşe verdi**

**Azerbaycan, işgalci Ermenistan'ı mağlup ederek sözleşme imzalamaya itti. Ermenistan'ın Karabağ'daki Kelbecer'den çekilen vatandaşları bölgeyi ateşe verdi.**

DÜNYA

Giriş Tarihi: 14.11.2020 20:18 ABONE OL Google News

Karabağ'da yer alan Kelbecer'de yaşayanlar, imzalanan anlaşma gereği 15 Kasım'da Azerbaycan'a teslim edilecek olan bölgeden ayrılmadan önce evlerini yakıyor.


İHA

Dağlık Karabağ'da yenilgiyi hazmedemeyen Ermeniler Kelbecer'de evleri yaktı

Popüler İçerikler


NTV #maskenitak Mesafeni Koru

SON DAKİKA CORONA VİRÜS TÜRKİYE EKONOMİ DÜNYA YAŞAM SPOR TEKNOLOJİ

Bu fırsat ile tanıştığınıza memnun olacaksınız!

Haberler / Dünya Haberleri / Terk etmeden önce ateşe verdiler

**Terk etmeden önce ateşe verdiler**

**Rusya'nın ara buluculuğunda yapılan anlaşma gereği 27 yıldır işgal altında tuttukları Kelbecer'i terk eden Ermeniler, evleri, kamu binalarını ve ormanlık alanları yaktı.**

Abone ol Google News Paylaş

Anadolu Ajansı 15.11.2020 - 08:10 | Son Güncelleme : 15.11.2020 - 08:12


TÜRKİYE KORONAVİRÜS DÜNYA EKONOMİ SPOR ANALİZ İNFOGRAFİK VİDEO FOTOĞRAF

DÜNYA

Ermeniler Kelbecer'deki son günlerinde evleri ve ormanlık alanları ateşe verdi

Azerbaycan ile Ermenistan arasında Rusya'nın ara buluculuğunda yapılan anlaşma gereği 27 yıldır işgal altında tuttukları Kelbecer'i terk eden Ermeniler, evleri, kamu binalarını ve ormanlık alanları yaktı.

Ruslan Rehimov | 14.11.2020

Bakü

**Azerbaycan** ile **Ermenistan** arasında **Rusya**'nın ara buluculuğunda yapılan anlaşma gereği 27 yıldır işgal altında tuttukları Kelbecer'i terk eden Ermeniler, evleri, kamu binalarını ve ormanlık alanları yaktı.

Sosyal medya ve Rus haber sitelerinde yayımlanan görüntülerde Kelbecer'in farklı bölgelerinde yaşayan Ermenilerin ayrılmadan önce bazı yapıları ateşe vermeleri, bazı yapıları da tahrip etmeleri yer alıyor.

***Azərbaycanın işğalçı Ermənistan üzərində rəşadətli hərbi-siyasi qələbəsi, eləcə də təcavüzkar tərəfin məğlubiyyət öhdəliklərinə münasibəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş şəkildə işıqlandırılmaqda davam edir.***

SİA xəbər verir ki, Ermənistanın işğalçılıq siyasəti əsasında Kəlbəcərdə qanunsuz məskunlaşan ermənilərin rayonu tərk edərkən zəbt etdikləri evləri və meşələri yandırması KİV-lər tərəfindən insanlığa yaraşmayan vəhşilik kimi dəyərləndirilir. Vurğulanır ki, bu torpaqlar və evlər ermənilərə məxsus olmadığından və onlar geri qayıda bilməyəcəklərini dərk etdiklərindən Azərbaycana qarşı sonuncu düşmənçilik imkanlarını bu yolla həyata keçirirlər. Baş verənlər təcavüzkar Ermənistanın hərbi-siyasi məğlubiyyətini həzm edə bilməməsinin nəticəsi olmaqla bərabər, insanlıq cinayəti və ekoloji terrordur.

# Taha Ayhan: Qarabağla bağlı həqiqətləri müsəlman xalqlar arasında daha geniş yaymalıyıq

***Azərbaycanın zəfərini qeyd etmək, onun haqlı mübarizəsini dəstəkləmək və yanında olduğumuzu göstərmək üçün 56 ölkənin və bütün dünyanın müsəlman gəncliyi olaraq Azərbaycana gəlmişik. Bu gün şəhidləri anmaq, buradakı yaralılara dəstək olmaq, erməni vəhşiliyinə diqqəti yönəltmək üçün burada - Gəncədəyik. Gəncədə mülki vətəndaşlara qarşı törədilən müharibə cinayətlərini şiddətlə qınayırıq.***



AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bu barədə noyabrın 18-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər Forumunun prezidenti Taha Ayhan jurnalistlərə müsahibəsində bildirib.

Ölkəmizin haqlı mübarizəsində qazandığı Qələbə münasibətilə xalqımızı təbrik edən İƏT Gənclər Forumunun prezidenti deyib ki, 27 il davam edən siyasi mübarizə yekunda Azərbaycan əsgərinin döyüşdəki Qələbəsi və Prezident İlham Əliyevin sayəsində diplomatiya müstəvisində zəfərlə nəticələnib.

Ermənistan silahlı qüvvələri Gəncə, Naftalan, Bərdə, Tərtər və Mingəçevirdə mülki vətəndaşlara qarşı və yaşayış məntəqələrinə raketlərlə hücumlar edib. Bu hücumlar nəticəsində dinc sakinlər, o cümlədən uşaqlar həlak olub. Ermənilər mülki vətəndaşları gecə vaxtı qadağan olunmuş silahlarla - raketlərlə hədəfə alıblar. Onların məqsədi azərbaycanlı qardaşlarımızı qorxutmaq, xaos yaratmaq olub. Ancaq gəncəlilər qorxmadılar, əksinə, bütün azərbaycanlılar dövlətin arxasında dayandılar, əsgərlər döyüş meydanında qələbə çaldılar.

Taha Ayhan deyib: "Biz də İƏT Gənclər Forumu olaraq Azərbaycanın yanındayıq, onun haqq mübarizəsini müdafiə edirik və Qarabağın Azərbaycana məxsus olduğunu hər zaman beynəlxalq arenalarda dilə gətirəcəyik. Qarabağla bağlı həqiqətləri dünyadakı müsəlman xalqları arasında daha geniş yaymalıyıq.

Dünyadakı müsəlman qardaşlarımızı Azərbaycanı, o cümlədən Qarabağı və Gəncəni ziyarət etməyə, bu möhtəşəm Qələbə ilə bağlı həqiqətləri daha geniş şəkildə yaymağa çağırıram. İnanıram ki, Azərbaycan və Türkiyə xalqları birlikdə həmrəylik nümayiş etdirdikcə, biz yeni qələbələr, daha gözəl günlərin şahidi olacağıq".

Türkiyə və Azərbaycan arasındakı qardaşlıq, dostluq münasibətlərinin və birliyin bütün Türkiyə vətəndaşlarını da məmnun etdiyini bildirən Taha Ayhan vurğulayıb: "Biz Türkiyənin hər küçə və prospektində Azərbaycan bayrağını öz bayrağımız kimi qürurla dalğalandırırıq. İnanıram ki, işğal altındakı digər ərazilər də Azərbaycana qaytarılacaq".

# "Putin Azərbaycanı müstəqil dövlət və etibarlı tərəfdaş kimi qiymətləndirib"

***"Rusiya Prezidenti Vladimir Putinin səsləndirdiyi fikirlər bir sıra mühüm tərəfləriylə diqqəti çəkir. Bunlardan biri hər şeydən öncə onun Dağlıq Qarabağın həmişə Azərbaycana aid olmasıyla bağlı səsləndirilən fikirdir ki, bu əslində 100 ilidir ki, ermənilər tərəfindən spekuliyasiya edilən bu mövzuya birdəfəlik son qoydu. Nəzərə almaq lazımdır ki, bu fikrin müəllifi erməniləri 200 il əvvəl Azərbaycan ərazilərinə gətirən və onlara dövlət verən Çar Rusiyasının varisi olan bir ölkənin birinci şəxsidir.***



Beləliklə də həm tarixi həm hüquqi konteksstdə ermənilərin Dağlıq Qarabağ manipuliyasıyasını hər iki kontekstədə onların əlindən alır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, Rusiya Prezidenti açıq şəkildə Azərbaycanı müstəqil dövlət və etibarlı tərəfdaş kimi qiymətləndirir, onun beynəlxalq hüquqa əsaslanan özünümüdafiə haqlarını qəbul edir və əslində həm də BMT nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq ona qarşı edilən təcavüzə qarşı özünün seçdiyi müttəfiqləri ilə birlikdə suveren hüquqlarını bərpaetmə haqlarının olduğunu normal hal hesab edir: "Elə Türkiyə-Azərbaycan müttəfiqliyinin də bu kontekstdə qiymətləndirilməli olduğunu irəli sürərək Türkiyənin də bu hərəkətinin əsla beynəlxalq hüquqa zidd olmadığını ifadə edir. Nəhayət Rusiya Federasiyasının da beynəlxalq hüquqa hörmət edən və müttəfiqləri ilə münasibətdə öz öhdəliklərinə sadiq olan bir dövlət olduğunu, Dağlıq Qarabağla məsələnin heç bir halda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına heç bir aidiyyatı olmadığını deyir. Bütün bunlar isə əslində Azərbaycanın regionumuzda yaratdığı yeni geostrateji reallığın yaratdığı yeni şərtlərin beynəlxalq hüquqla uzlaşması və Rusiyanın bunu qəbul etməsi deməkdir".

H.Babaoğlu vurğulayıb ki, Putinin bu mövqeyi bundan sonra bütün beynəlxalq və regional aktorlara yeni reallığı dərk etmələri üçün yaxşı mariflәmdirmə xarakteri daşıyır: "Eyni zamanda Rusiya informasiya məkanına da Rusiyanın rəsmi mövqeyinin necə olmasını izah edir. Ona görə də bəzi rus media qrumları da bundan müyyən nəticə çıxarmaqla öz informasiya siyasətlərinə korrektələr etməli olacaqlar. Ən sonda isə Putin Azərbaycan ordusunun ən müasir və güclü ordulardan biri olduğunu olduqca düzgün qiymətləndirərək deyir ki, Ermənistan bu anlaşmanı qəbul etməsə intihar etmiş olacaqdı. Bütün bunlar isə bir sonrakı mərhələdə Rusiya - Azərbaycan münasibətlərinin qarşılıqlı etimad və tərəfdaşlıq əsasında daha da inkişaf edəcəyi ilə bağlı yaxşı perespektivlər yaradır ki, bu da hər iki qonşu ölkənin milli maraqlarına uyğundur".

***Aysel Məmmədova***

## Türkiyənin Azərbaycana hərbi qüvvələr göndərməsi ilə bağlı qərarda nə yazılıb?



Türkiyə Böyük Millət Məclisinin Azərbaycana qoşun göndərilməsi haqqında qəbul etdiyi qərar "Rəsmi Qəzetdə" dərc edilib. SİA xəbər verir ki, "Rəsmi Qəzet"dəki TBMM qərarında atəşkəsə əməl olunmasını yoxlamaq üçün işğaldan azad edilmiş Azərbaycan ərazilərində "Ümumi Mərkəz" yaradılacağı vurğulanıb.

Qərarda dost və qardaş ölkə Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək uğrunda apardığı mübarizənin illərdir davam etdiyi ifadə edilib. "Azərbaycanın özünümüdafiə hüququndan istifadə edərək sentyabrın 27-də başlatdığı əks-hücum əməliyyatları nəticəsində işğal altındakı ərazilərinin azad edilməsi istiqamətində önəmli uğurlar qazanıb". Qərara əsasən, Türkiyə hərbçiləri 1 il müddətinə Dağlıq Qarabağdakı Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzində fəaliyyət göstərəcəklər.

Qeyd edək ki, Türkiyənin Azərbaycana hərbi qüvvə göndərməsi iki ölkə arasında 16 avqust 2010-cu il tarixində imzalanan "Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"yə uyğun olaraq həyata keçirilir.

***Aysel Məmmədova***

# "Fransa rəsmilərinin məsuliyyətsiz bəyanatları....."



"44 günlük müharibə dövründə və ondan sonrakı günlərdə Fransanın anti-Azərbaycan mövqeyində durması bu ölkənin bəyanatlarında və əməllərində səmimi olmadığını nümayiş etdirir. ATƏT-in Minsk qrupunun həmsədri kimi neytral mövqe tutmaq əvəzinə Ermənistanı açıq şəkildə dəstəkləməsi, hətta bu ölkənin rəsmilərinin məsuliyyətsiz bəyanatlar verməsi, fikirlər səsləndirmələri Fransanın beynəlxalq etimad limitini tükətməkdədir". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Fransa rəsmilərinin məsuliyyətsiz bəyanatları, Ermənistana münasibətdə, əgər belə demək mümkündürsə, "böyük bacı" missiyasını yerinə yetirməsi bu ölkənin beynəlxalq imicinə ciddi zərbədir: "Bu kontekstdə Paris meriyasının qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımağa hazırlaşması ilə bağlı merin fikirləri nəinki Azərbaycan-Fransa münasibətlərinə, hətta beynəlxalq hüququn norma və prinsiplərinə ciddi zərbə vurur. Əslində, bu fikirlərlə fransız məmur Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirmək niyyətini ortaya qoyur. Fransa rəsmisinin bu cür fikirlər səsləndirməsi, ilk növbədə, bu ölkənin öz nüfuzuna xələl gətirmiş olur. Belə görünür ki, Fransa kimi bir ölkə 3-5 erməninin əlində əsir-yesir qalıb, yaxud erməni lobbisi tərəfindən bu dövlətin rəsmiləri satın alınıb".

Baş redaktor diqqətə çatdırıb ki, Paris meri Enn İdalqonun sərsəm fikirlərinin kökündə erməni lobbisinin niyyəti dayanır: "Hər kəs yaxşı bilir ki, mer Enn İdalqo Fransa erməniləri ilə sıx işbirliyindədir. Hətta onun müavinlərindən biri erməni əsilli Anuş Toronyandır. Anuş Toronyan isə Fransa ermənilərinin CCAF təşkilatının rəhbəri Ara Toronyanın qızıdır. Bu fakt özlüyündə sübut edir ki, Paris meri Enn İdalqonun sərsəm fikirlərinin kökündə erməni lobbisinin niyyəti dayanır".

"2015-2018-ci illərdə Parisin meri Ermənistanın o vaxtkı prezidenti Serj Sarkisyanla 4 dəfə görüşüb. O, Ermənistanda yaradılmış TUMO Center for Creative Technologiesin Paris bölməsinin açılışında iştirak edib və bu mərkəzə hərtərəfli dəstək göstərib. TUMOnun hətta Xankəndidə də ofisi olub" deyən Vüqar Rəhimzadə əlavə edib ki, erməni lobbisi ilə sıx işbirliyində olan Paris meri Enn İdalqo anlamalıdır ki, o, Fransanın milli maraqlarını bir qrup erməninin girovuna, daha doğrusu nəfsinin alətinə çevirib: "Bəlli olan faktlarla yanaşı, o da məlumdur ki, Enn İdalqo Fransada erməni kilsəsinin açılışında iştirak edib, dəfələrlə qondarma "erməni soyqırımı" ilə bağlı tvitlər paylaşıb, eyni zamanda, Dağlıq Qarabağdakı separatçı rejimi dəstəkləyən təşəbbüslər irəli sürüb və marafonlar təşkil edib. Bu gün nəinki Paris meri, hətta Makron belə anlamalıdır ki, Ermənistanın belə tanımadığı qondarma separatçı rejimi dəstəkləməklə Fransa faktiki olaraq terrorizmi, işğalçılığı, təcavüzü dəstəkləmiş olur. Bəlkə də Paris meri bu cür təşəbbüslə çıxış etməklə dünyaya bir daha mesaj vermək istəyir ki, Fransa yaxın keçmişdə əli milyonlarla insanın qanına batmış, ayrı-ayrı xalqlara qarşı soyqırım törətmiş bir ölkədir".

# Ordumuzun qazandığı zəfər ədliyyə işçilərinin peşə bayramını daha da əlamətdar etdi

***Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü bu il ədliyyə orqanları və hakimlər tərəfindən daha böyük ruh yüksəkliyi ilə qeyd ediləcək.***

Bu günlərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yenilməz ordumuz Qarabağımızın 30 illik işğalına son qoymuşdur. Xüsusi ilə Rəşadətli ordumuz tərəfindən 44 günlük zəfər yürüşünün sonunda Qarabağımızın tacı olan Şuşa şəhərinin işğaldan azad edilməsi, xalqımıza çoxdan arzuladığımız, xəyallarımızada olan qələbə sevincini yaşatmışdır. Biz bu qələbəni şəhidlərimizin canı qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına əldə etmişik.

Azərbaycanın ədliyyə orqanları və məhkəmə hakimləri də bu günlərdə "Hər şey vətən üçün, hər şey qələbə üçün" şüarı altında fəaliyyət göstərmiş, ümumi qələbənin qazanılmasınada, Azərbaycanın hansı vəhşi və quldur bir dövlətlə qonşu olmasını, dünya ictimaiyyətinin nəzərinə çatdırmaq işndə yaxından iştirak etmişlər.

Azərbaycan Respublikasının Ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının sədri cənab Fikrət Məmmədov BMT-nin dəstəyi ilə yaradılmış və dünyanın 140 dövlətini birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (AACA) vitse-prezidenti kimi təşkilatın üzvlərinin işğalçı Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təxribatları və müharibə cinayətləri barədə məlumatlandırılması məqsədilə Assosiasiyanın prezidenti, Qətərin Baş prokuroru Dr. Ali Al Marriyə müraciət ünvanlamışdır.

Müraciətdə Ermənistanın hərbi təcavüzü nəticəsində əzəli tarixi torpağımız Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal olunması, Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qalaraq bir milyon soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsinin tarixçəsi qeyd edilmiş, ermənistan tərəfindən bu gün də Azərbaycanın mülki əhalisinin hədəfə alınaraq qadağan edilmiş silahlarla mülki insanların qırğınını törətməsi diqqətə çatdırılmışdır.



Ədliyyə naziri cənab Fikrət Məmmədov nazirliyin sıx əməkdaşlıq etdiyi Avropa məkanında yerli özünüidarə orqanlarına məsul nüfuzlu qurum olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidentinə və baş katibinə Ermənistanın ölkəmizə qarşı hərbi təxribatları, xüsusilə dinc əhaliyə hədəflənən müharibə cinayətləri ilə bağlı müraciət ünvanlamışdır.

Müraciətdə dünya ictimaiyyətinin diqqətinin yönəldiyi 30 ildir davam edən Ermənistan-Azərbaycan hərbi münaqişəsinin acı nəticələri, əzəli tarixi torpağımız olan Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal olunaraq etnik təmizləməyə məruz qalan azərbaycanlıların öz dədə-baba yurdlarından didərgin salınması, bununla da ermənilərin işğal altında saxladıqları ərazilərimizdə bələdiyyə institutunun yaradılmasının qeyri-mümkünlüyü və məcburi köçkün düşmüş soydaşlarımızın uzun illərdir yerli özünüidarə hüququndan tamamilə məhrum olunduğu barədə məlumat verilmişdir. Cənab Fikrət Məmmədov Ermənistanın münaqişənin ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar yolu ilə həllini dəfələrlə müxtəlif bəhanələrlə uzatması, silahlı qüvvələrini işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasına məhəl qoymaması, ona sərf edən status-kvonu davam etdirərək işğal altındakı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməsi və qeyri-qanuni iqtisadi fəaliyyət göstərməsi, qanunsuz məskunlaşdırma həyata keçirməsini Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidentinə və baş katibinin diqqətə çatdırmışdır.

Azərbaycacnın Ali Məhkəməsi oktyabrın 27 və 28-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisini hədəfə alması ilə bağlı bəyanat qəbul edərək bu bəyanatı dünya ölkələrinin, o cümlədən Avropa Şurasının üzv dövlətlərinin ali məhkəmələrinə göndərmişdir. Hərbi əməliyyatların aparıldığı, cəbhəətrafı rayonların ədliyyə orqanları, rayon və apelyasiya məhkəmələri iş rejimlərini ölkədə elan edilmiş hərbi vəziyyətin tələblərinə uyğun qurmuşlar. Beləliklə ədliyyə orqanları və hakimlər bütöv xalqımız kimi "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı altınada birləşərək fəaliyyət göstərmiş, bu gün də bu şüarla fəaliyyət göstərməkdə davam edirlər. Beləliklə hakimlər və ədliyyə orqanları "Qarabağ Azərbaycandır!" şüarının tam məzmunda reallaşmasına öz töhvələrini vermişlər.

Noyabrın 13-də Türkiyə Respublikasının ədliyyə naziri Abdulhamit Gül və Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov arasında telefon danışığı olmuş, danışıq zamanı A.Gül dost və qardaş Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən şanlı Qələbə münasibətilə cənab Fikrət Məmmədovu təbrik etmiş, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin haqq davasında zəfər çalması ilə bağlı sevincini bölüşmüşdür. Türkiyəli nazir cənab Fikrət Məmmədovla söhbətində xalqlarımızın və dövlətlərimizin hər zaman bir-birinin yanında olduğunu qeyd edərək bundan sonra da dəstəyini əsirgəməyəciyini vurğulamışdır.

Beləliklə, Azərbaycan Ədliyyəsinin 102-ci il dönümünün ölkəmizin və xalqımızın həyatında əlamətdar olan, ölkəmizinn ərazi bütövlüyünün bərpa edilməsi üzrə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Şanlı Ordumuzun və bütün Azərbaycan xalqının apardığı Vətən müharibəsi günlərinə, Şanlı Ordumuzun hələ də bir qismi işğal altında olan torapqlarımızın azad edilməsi uğrunda apardığı misilsiz döyüş fədakarlığı günlərinə təsadüf etməsi, hakimlərə və ədliyyə işçilərinə ikiqat fərəh verir, onları peşə fəaliyyətlərini daha əzmlə apramağa ruhlandırır. Bu günlərdə Ordumuzun və xalqımızın yanında olmaqla yanaşı hakimlər və ədliyyə orqanları dövlətimizin başçısı İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəm-Hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" proqram xarakterli Fərmanının icrası ilə bağlı tədbirlərini də davam etdirmiş, cəmiyyətin müxtəlif təbəqələri, o cümlədən hüquq ictimaiyyəti, sahibkarlar, biznes dairələri, vətəndaş cəmiyyəti institutları nümayəndələri üçün ictimai müzakirələr, təqdimatlar və.s tədbirlər keçirilmiş, maarifləndirmə işləri aparılmışdır. Fərmanın icrası ilə bağlı kommersiya məhkəmələri fəaliyyətə başlamış, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin təkmulləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı qəbul edilmiş normativ hüquqi aktların tətbiqinə başlanılmış, Ədliyyə orqanlarında və məhkəmələrdə müasir texnologiyaların və innovasiyaların tətbiqinə diqqət daha da artırılmışdır. Məhkəmə Hüquq Şurası tərəfindən hakimlərin seçim qaydası təkmilləşririlərək bu proses daha da mükəmməlləşdirilmiş, bu işdə çeviklik artırılmış, 44 həfər hakimliyə namizəd bütün imtahanlardan keçərək onların hakim vəzifələrinə təyinatı üçün bütün mərhələlər arxada qalmış, hakimliyə namizədlərin yaxın vaxtlarda hakim vəzifələrinə təyin edilməsi nəzərdə tutulmuşdur ki, bu da hakimlərin iş yükünün azaldılması, məhkəmələrdə işlərə vaxtında və keyfiyyətlə baxılmasına öz töhvəsini verəcəkdir.

Bütün hakimləri, ədliiyyə işçilərini, hüquq ictimaiyyətini Şanlı Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əldə etdiyi qələbələr və ədliyyə işçilərinin peşə bayramı günü münasibəti ilə təbrik edir, onlara qanunun aliliyinin və insan hüquqlarının təmin olunması ilə bağlı fəaliyyətlərində yeni müvəffəqiyyətlər arzulayıram.

***İsmayıl Əhmədov,***
***Şirvan Apelyasiya Məhkəməsinin hakimi***

# "44 gün Azərbaycan xalqının yenilməzliyinin, məğlubedilməzliyinin təsdiqi oldu"

"Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi 30 ilə yaxın düşmən işğalında qalan torpaqlarımızın azad edilməsi ilə başa çatdı. Müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan Azərbaycan Ordusu tarixi, əzəli torpaqlarımızı işğaldan azad etmək uğrunda beynəlxalq hüquq çərçivəsində legitim döyüşlər apardı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Qələbə xalqımızın bütün dünyaya haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Azərbaycan Ordusu dünya hərb tarixində qalib Ordular sırasına daxil oldu". SİA-nın verdiyi məlumata görə, bunu Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib.

Millət vəkili qeyd edib ki, dövlətçiliyimizin ən şərəfli səhifələrini yazan bu zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoydu. Dünyaya səs salan Qələbəmiz müstəqil Azərbaycanımızı dünyada qalib xalq, məğlubedilməz dövlət kimi yenidən tanıtdı.

Ən mühüm məqamlardan biri də odur ki, vaxtilə işğal nəticəsində torpaqlarını tərk edən, illərdir ata-baba ocağına həsrət qalan, yurd nisgili yaşayan həmvətənlərimiz artıq məcburi köçkün deyillər. İllərdir məcburi köçkün, qaçqın ifadəsinin ağırlığından xilas olmaq istəyi ilə yaşayan soydaşlarımızın arzusunu Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. Prezidentimiz, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə də böyük qürur hissi ilə "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz" bildirdi: "Xalqımızın duyğularını təsəvvür etmək çətin deyil. Mən bu dönəmdə hər gün minlərlə məktub alıram. Sevinclə dolu, minnətdarlıqla dolu, qürur hissi ilə dolu məktublar məni doğrudan da çox duyğulandırır. Bu gün bizim televiziya kanallarımız, internet saytlarımız uzun illər məcburi köçkün həyatı yaşamış insanları, onların duyğularını, onların sözlərini ictimaiyyətə təqdim edəndə onların ən çox sevdiyi və dediyi ifadəni mən bildirmək istəyirəm. Deyir ki, artıq mən qaçqın deyiləm. Bilirsiniz bu, nə deməkdir? "- deyərək Ölkə Başçımız bu məqamın həm özünün, həm bu insanların həyatında ən xoşbəxt anların təzahürü olduğunu qeyd etdi.

Azərbaycan tarixinin möhtəşəm qələbəsi həm də ölkə Prezidentinin 44 gün ərzində nümayiş etdirdiyi yüksək qətiyyət və beynəlxalq təzyiqlərə sinə gərməsi ilə yadda qaldı. Bütün dünya Azərbaycanın gücünə, Ermənistanın rəzil duruma salınmasına, işğalçı dövlətin kapitulyasiya aktını imzalamasına şahidlik etdi. Ermənistan hərbi, siyasi, diplomatik sahədə ağır məğlubiyyətə uğradı. Azərbaycan Ordusu erməni ordusunu diz çökdürdü, demək olar ki, bütün texnikaları məhv edildi, düşmənin illərlə qurduqları istehkamlar Azərbaycan əsgərləri tərəfindən keçildi. Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində Azərbaycan xalqı yenilməz, məğlubedilməz xalq olduğunu bütün dünyaya göstərdi. Prezidentimiz Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanının təhlükələrə rəğmən işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına,səfər etməsi Böyük Qələbə sevincini xalqımızla bölüşməsi "Qarabağ Azərbaycandır və nida" fikrinin təsdiqi oldu.

# General Yücel Karauz: Şanlı hərbi zəfərlərin tarixləri Azərbaycanda ən əziz günlər kimi qeyd olunacaq



***Hazırda bütün dünyanı maraqlandıran mühüm bir sual var: Azərbaycan 28 il sonra bu şanlı Qələbəni necə qazandı? Bu zəfərin dörd mühüm səbəbi var. İlk növbədə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev fəaliyyətini ümummilli lider Heydər Əliyevin vəsiyyətlərinə uyğun qurmaqla böyük uğurlar qazana bilmişdi.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general Yücel Karauz bildirib. Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasını, üçrəngli bayrağa tükənməz məhəbbəti, torpağa və Vətənə bağlılığı birlik və həmrəyliyin təzahürü kimi dəyərləndirən general Yücel Karauz deyib: "Üçrəngli bayrağı, Vətəni və torpağı, milli-mənəvi dəyərləri üçün şəhidlik zirvəsinə ucalmağa hazır olan övladlara sahib ölkə basılmazdır. Əminliklə deyə bilərəm ki, 8, 9 və 10 noyabr tarixləri Azərbaycanda ən əziz günlər kimi bayram əhval-ruhiyyəsi ilə qeyd olunacaq".

# Azərbaycan Kəlbəcərdəki vandalizmə səssiz qalmayacaq

## Prezident İlham Əliyev: "Düşmən Kəlbəcərə görə cavab verəcək"







***"Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də bina qoymayıblar. Yalnız o tərəfdə özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, məktəblər, binalar, ictimai binalar hamısı düşmən tərəfindən sökülüb. Onlar buna görə beynəlxalq məhkəmələrdə cavab verəcəklər".***

Bu sözləri noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olarkən bildirib.

"Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində"

Kəlbəcərdə ermənilərin törətdikləri yanğınların da cavabının veriləcəyini qeyd edən Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirib ki, Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək: "Mən demişəm, bir daha demək istəyirəm, beynəlxalq qurumlar, ekspertlər gələcək, bütün ziyan hesablanacaq, 30 il ərzində bizə vurulmuş zərər nəzərə alınacaq və onlara qarşı təzminat iddiası qaldırılacaq. Bugünlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək. Onlar düşünürdülər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bura qayıtmayacaq. O məqsədlə buraları dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində. Bütün buraları yenidən bərpa edəcəyik!"

### Hikmət Hacıyev: "Azərbaycan humanist addım atıb və noyabrın 25-dək onlar ərazini tərk edəcəklər"



Qeyd edək ki, İlkin anlaşmaya görə, Kəlbəcər rayonu noyabrın 15-dək, Ağdam rayonu noyabrın 20-dək və Laçın rayonu dekabrın 1-dək təhvil verilməli idi. Lakin Kəlbəcər rayonunun təhvil verilməsi prosesi 10 gün sonraya - noyabrın 25-nə keçirildi.

Azərbaycan prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev keçirdiyi brifinqdə Kəlbəcər rayonunun təhvil verilməsi prosesinin 10 gün sonraya - noyabrın 25-nə keçirildiyini açıqlayarkən bildirib ki, Ermənistan Kəlbəcərin təhvil verilməsi üçün noyabrın 25-nə kimi vaxt istəyib: "Kəlbəcər rayonu coğrafi baxımdan böyük bir ərazini əhatə edir. Onların gedəcəyi yol Kəlbəcər-Zod-Vardenis yoludur. Ərazinin coğrafiyası və relyefi də çətindir. Yolda sıxlıq əsaslı şəkildə artıb... Kəlbəcərdə yerləşdirilən mülki əhalinin çıxması ilə bağlı Azərbaycan humanist addım atıb və noyabrın 25-dək onlar ərazini tərk edəcəklər".

Göründüyü kimi, Ermənistan hökuməti Rusiya prezidenti Vladimir Putinə Kəlbəcərin təhvil verilməsi üçün Azərbaycanın vaxt verməsini istəyib. Azərbaycan Prezidenti İlham Əliyevlə Putin arasındakı telefon danışığı zamanı bu məsələdə müzakirə mövzusu olub. Ölkə başçısının humanist addımı nəticəsində ermənilərə daha 10 gün müddət verilib. Halbuki 1993-cü ildə Kəlbəcərin işğalı zamanı erməni hərbi birləşmələri əhaliyə rayonu tərk etmək üçün cəmi 10 saat vaxt vermişdi. Buna baxmayaraq, Azərbaycan humanistlik göstərərək daha 10 gün gözləməyə razılaşıb.



### Aqil Məmmədov: "Heç nə dəyişməyib, onlar gələndə də talayıb yandırırdılar, indi gedəndə də od vurub gedirlər..."

"İndi isə işğalçılar başlarına gələn bu böyük müsibətin, üzləşdikləri bu acınacaqlı məğlubiyyətin nəticəsində Kəlbəcəri tərk etməyə məcburdur. Amma onlar gəldikləri kimi də gedirlər-evləri, ictimai binaları talayıb yandıraraq, geridə "yandırılmış torpaq" buraxırlar. Erməni vandalizminin bu sifəti Azərbaycana çoxdan tanışdır". Bu fikirləri Milli Məclisdə Kəlbəcəri təmsil edən deputat, Kəlbəcər rayon İcra Hakimiyyətinin sabiq başçısı Aqil Məmmədov da dədə-baba yurduna qayıdacağı günü həsrətlə gözləyir: "Kəlbəcər Azərbaycanın dilbər guşələrindən biridir. Həm ərazisinə, həm təbiətinə, həm iqliminə görə əlçatmaz gözəlliyə malik bölgədir. Sovetlər dövründə 1936 kvadrat kilometr əraziyə malik idi. Emənistanla sərhədinin uzunluğu 136 kilometr, Dağlıq Qarabağla sərhədlərinin uzunluğu 96 kilometrdir. Bakı-Kəlbəcər arasındakı məsafə 445 kilometr təşkil edir. 40 min hektara yaxın zəngin meşələrə malik idi. Kəlbəcər yeraltı, yerüstü sərvətlərlə zəngin olan bölgədir. Sovetlər dövründən ta bugünədək erməni işğalında qalan Kəlbəcərin Zod mədəni işğala məruz qalmışdı. Eyni zamanda, SSRİ dövründə dünyada məşhur olan "İstisu"yuna görə Kəlbəcər ən gözəl yerlərdən sayılırdı. SSRİ-yə daxil olan ölkələrdən ora çox sayda turistlər gəlirdi. Eyni zamanda, Kəlbəcərə gözəllik verən Tərtər çayı idi. Tərtər çayı öz mənsəbini çox hündür dağlardan götürür. Oradan Kür çayına, daha sonra Xəzər dənizinə qovuşur. Çox təəssüflər olsun ki, işğaldan sonra ermənilər çayın qarşısını kəsərək, başqa səmtə yönəltmişdilər, həmin vaxt biz sudan istifadə edə bilmirdik. Suqovuşan azad edildiyinə görə

artıq Tərtər çayının suyundan istifadə edə bilirik".

### Erməni xislətinin hər üzünü görən Kəlbəcər...

"1993-cü ilin aprelin əvvəllərindən erməni xislətinin hər üzünü görən Kəlbəcər əhalisinə məxsus 15 min yaşayış evi qarət edildi, yandırıldı, 100 mindən çox iribuynuzlu, 500 mindən çox xırdabuynuzlu mal-qara oğurlandı, dövlətə məxsus 500-dən çox inzibati bina, 370 ədəd sosial-mədəni obyekt, o cümlədən 76 səhiyyə müəssisəsi, 130-dan çox təhsil müəssisəsi, 170-dən çox mədəniyyət binası yerlə-yeksan edildi, 1500 minik maşın qarət olundu. Həmin vaxt Kəlbəcər rayonunun 500 oğlu Şəhid oldu ki, onların yarısı mülki, yarısı hərbi şəhidlər idi. Əhalinin 600 nəfəri girov götürüldü ki, onlardan yalnız 120 nəfər geri qaytarıldı, yerdə qalanlardan bugünədək heç bir xəbər yoxdur. Ermənilərin Kəlbəcəri 1988-ci ildən 1993-cü ilin aprelinə qədər mühasirə şəraitində saxladılar. Bu beş il ərzində kəlbəcərlilər hər cür çətinliyə sinə gəldilər, öz torpaqlarını mərdliklə müdafiə etdilər. Kəlbəcər Azərbaycanın qədim qala qapısı sayılırdı. Həm coğrafi mövqeyinə, həm də insanların torpağa bağlılığına görə Kəlbəcəri asanlıqla işğal emək mümkün deyildi. Çox təəssüflər olsun ki, ölkədəki o vaxtkı siyasi rəhbərlik, ölkədaxili hərc-mərclik düşmənə göydəndüşmə fürsət oldu. Beləliklə, ermənilər öz havadarlarının köməkliyilə 1993-cü il aprelin 2-də Kəlbəcəri işğal etdilər".

### "Biz öz yurdumuzda tikiləcək evlərimizə qayıdacağıq"

"54 min nəfər respublikanın 54 rayonun mindən artıq yaşayış məntəqəsində məskunlaşdı. Hazırda Kəlbəcər əhalisinin sayı 77 min 461 nəfər, 23 min 406 ailədir. Kəlbəcər 128 kənddən, 1 şəhər və qəsəbədən ibarətdir. Dövlət tərəfindən əhaliyə mütəmadi olaraq diqqət və qayğı göstərilib. 56 mindən çox kəlbəcərli aylıq müavinət şəklində hər ay dövlət tərəfindən yardım alır. Bu isə 3 milyon 250 min manata yaxın vəsait edir. Eyni zamanda, respublikada 102-dən artıq qaçqın qəsəbələri salınıb. Bu qəsəbələrdə kəlbəcərli məcburi köçkünlər də məskunlaşıb. 4650 kəlbəcərli ailəsi bütün şəraitlə təmin olunmuş yeni, müasir evlərdə yaşayır. Proses hələ də davam etdirilir. Bu ilin sonunadək 7 mindən çox məcburi köçkün ailəsinin evlə təmin olunması nəzərdə tutulur. Ümid edirik ki, hazırda ordumuz tərəfindən həyata keçirilən uğurlu hərbi əməliyyatlarla biz öz torpaqlarımızda tikiləcək evlərimizə qayıdacağıq. Hazırda bircə arzumuz var ki, torpaqlarımız tamamilə yadellilərdən azad edilsin. Daha sonra hər bir kənd, qəsəbə minlardan təmizlənməlidir. Yollarımız təmir edildikdən, evlər mərhələli şəkildə tikildikdən, bütün sahələr üzrə-tibb, səhiyyə, mədəniyyət bərpa olunduqdan sonra cənab Prezidentimiz İlham Əliyevin tapşırığı ilə işlər mərhələli şəkildə həyata keçiriləcək. Çünki torpaqlar işğaldan azad edilən kimi əhalini həmin əraziyə buraxmaq olmaz. Bütün proseslər planlı, mərhələli şəkildə həyata keçirilməlidir. Təki biz torpaqlarımıza qayıdaq, orada hər bir çətinliyə qatlaşmağa hazırıq. İnsanlar yenidənqurma işlərində şəxsən iştirak etmək üçün qollarını çırmamağa hazır olduqlarını dəfələrlə bəyan ediblər".

Millət vəkili qeyd edib ki, bu gün Azərbaycan xalqı, Azərbaycan Ordusu haqq yolundadır, haqq işindədir: "Biz heç kəsin torpaqlarında deyil, öz torpaqlarımızda erməni terrorçularına qarşı döyüşürük, torpaqlarımızı bu terrorçulardan azad etmək üçün haqq savaşına çıxmışıq. Və bu gün haqq, ədalət bərpa olunud, qalib gəldi!. Qələbə Zəfəri ilə Qarabağ Azərbaycandır! Nidasını birdəfəlik qoydu!"

### Aleksey Naumov: " Ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın köçürdü"

Ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın qaçırdılar. Aradan çox illər keçsə də, bunu unutmaq olmaz. bu barədə Rusiyanın "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov Kəlbəcəri tərk edən ermənilərin oradakı evlərini və digər tikililəri yandırmasını əks etdirən videogörüntüləri şərh edərkən bildirib.

Qarabağın beynəlxalq hüquqa əsasən Azərbaycan torpağı olduğunu, onun öz ərazilərini geri qaytarmaq üçün mübarizə apardığını vurğulayan ekspert deyib: "Ən əsası isə rəsmi Bakı Şuşa şəhərini aldığı zaman alicənablıq göstərərək razılıq verdi ki, sülhməramlılar əraziyə buraxılsın, rayonlar mərhələ-mərhələ, tədricən Azərbaycana qaytarılsın. Azərbaycanın



özünü bu vəziyyətdə bundan da artıq necə alicənablıqla apara biləcəyini təsəvvür edə bilmirəm. Ermənilərə bu rayonlardan çıxmaları üçün vaxt verildi".

Aleksey Naumov 1993-cü ildə azərbaycanlıların Kəlbəcərdən çılpaq, ayaqyalın qaçmasını da xatırladıb: "Bu tamamilə faciəli vəziyyət idi və onu bu gün də unutmaq olmaz. Bəli, bu, çoxdan olub, amma biz bunu unuda bilmərik".

Ekspert Ermənistan hakimiyyətinin bu vəziyyətdə belə, özünü qeyri-adekvat aparmasından danışaraq deyib: "Aydındır ki, hərbi məğlubiyyətdən sonra qisas almağı, yumruğunu sıxaraq, onların hesab etdiyi kimi - "özününkünü" qaytarmaq istəyirsən. Lakin biz qisasçılığın nəyə gətirib çıxardığını bilirik. Biz bunu Avropada XX əsrdə çox yaxşı görmüşük".

Rusiyalı ekspert çıxışının sonunda Ermənistanın baş naziri Nikol Paşinyanın öz qürurunu udaraq Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməli olduğunu bildirib: "Azərbaycan bu gün belə bir vəziyyətdə özünü maksimum alicənab aparır, çünki 1993-cü ili unuda bilmərik".

Bir sözlə, bu gün bütöv, yeni quruculuq layihələrinin reallaşdırılmasına hazırlaşan güclü və modern Azərbaycan var. Özü haqqında miflər uydurae işğalçı Ermənistan yoxdur, çökdürülmüş Ermənistan var...

Artıq qalib dövlət, qalib xalq və qalib ölkənin vətəndaşları olaraq Öz PRezidenti, Ali Baş Komandanı İlham Əliyev cənabları ilə, Müzəffər Güclü Ordusu, şücaətli əsgər və zabitləri və xalqı Qələbə Zəfəri ilə qürür duymaq haqqı var. Çünki Qarabağ Azərbaycandır!!!

***RƏFİQƏ KAMALQIZI***

## Armen Xaçatryan: "Paşinyan uğur qazana bilməyib"



Ermənistan parlamentinin yaxınlığında Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə aksiya keçirilir. SİA armenianreport.com-a istinadən xəbər verir ki, etirazçılar "Mənim addımım" blokunun deputatlarının da aksiyaya qoşulmasını tələb edirlər.

Məlumatda qeyd olunur ki, "Mənim addımım"-dan olan yalnız bir millət vəkili Armen Xaçatryan etirazçılara yaxınlaşıb və o Nikol Paşinyanın Qarabağla bağlı üçtərəfli bəyanat imzalamaq məcburiyyətində qaldığını deyib. Millət vəkili vəziyyətin Ermənistan, ermənilər üçün kritik olduğunu, Dağlıq Qarabağ rəhbərliyindən alınan informasiyaların ürəkaçan olmadığını qeyd edib. Qeyd edib ki, baş nazir Nikol sona qədər mübarizə aparmağa çalışsa da uğur qazana bilməyib.

## "Joxovurd" qəzeti: Ermənistan hökumətinin 80%-i dəyişəcək



Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin təxminən 80%-ni dəyişdirmək niyyətindədir. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Joxovurd" qəzeti yazır. Qəzetinin yazdığına görə, hakim partiya indi nazirləri əvəzləmək istədiyi üçün kadr axtarır. Nəşrin əldə etdiyi məlumata əsasən, Ermənistan Respublikasının Əmək və Sosial İşlər Naziri Zaruhi Batoyan, Ermənistan Respublikasının Təhsil, Elm, Mədəniyyət və İdman Naziri Arayik Arutyunyan, Ermənistan Respublikasının Səhiyyə Naziri Arsen Torosyan, Ermənistan Respublikasının İqtisadiyyat Naziri Tiqran Xaçatryan, Ermənistan Respublikasının Müdafiə Naziri David Tonoyan yaxın gələcəkdə hökuməti tərk edəcəklər. Məlumata görə, siyahıda istefa etməli olan müdafiə nazirinin müavinləri də var.

Xatırladaq ki, artıq Ermənistanda istefa bumu başlayıb və bu ölkənin Xarici İşlər Naziri Zohrab Mnasakanyan istefa verdikdən sonra nazir müavini Şavarş Köçəryan da istefa ərizəsi yazıb və hazırda Xarici İşlər Nazirliyində də istefa paradı gözlənilir.

## "Putinin açıqlamaları Ermənistanın maraqlarına cavab vermir"



***"Rusiya prezidenti Putinin fikirlərində Azərbaycanın maraqlarına cvb verən bir çox ifadələr səslənib. Bu, bizi təbii ki, qane etməyə bilməz. Çünki burada həm Ermənistanda vəziyyət, həm Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə yanaşması, həm Türkiyənin rolunu, həm də Minsk Qrupunun fəaliyyəti kifayət qədər geniş və dəqiq qimətləndirilib.***

Putin bu məsələyə öz münasibətini geniş şəkildə bildirib. Əgər biz bütün prosesləri bu münaqişənin ilk günündən axır gününə qədər izləsək görərik ki, Putin faktiki olaraq bizim mövqeyimizi yüksək qiymətləndirib". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.

Ekspertin sözlərinə görə, əvvəla qeyd edib ki, Azərbaycan öz torpaqlarında vuruşur və Azərbaycan öz tarixi torpaqlarını azad edir: "Qarabağ Azərbaycana məxsus olan torpaqdır. Digər tərəfdən də onu da deyib ki, Azərbaycanın orada kiməsə müxtariyyət verib verməməsi özünün daxili işidir. Heç kim buna müdaxilə edə bilməz. Azərbaycan Prezidenti də öz növbəsində kifayət qədər açıq şəkildə deyib ki, bundan sonra Azərbaycan torpağında heç bir muxtariyyət ola bilməz. Bu məsələ aydındır və artıq bağlanıb. Putin həmçinin Türkiyənin rolunu da yüksək qiymətləndirib. Bunu iki istiqamətdə qəbul etmək lazımdır. Birincisi Putin həqiqətən düzgün qeyd edib ki, Türkiyənin regionda artan rolu SSRİ-nin dağılmasının nəticəsidir. Bu həqiqətən belədir. Putin bununla onu diqqətə çatdırmaq istəyir ki, Azərbaycan hələ Sovet zamanından Türkiyə ilə qarşılıqlı hörmət, məhəbbət yüksək səviyyədə olub. Bu da təbii ki, Moskvanı qıcıqlandırıb".

F.Sadıqov vurğulayıb ki, indi isə Putin kifayət qədər açıq şəkildə bildirib ki, Türkiyə beynəlxalq hüquq normalarına uyğun hərəkət edir: "Türkiyə Azərbaycanın müttəfiqidir və bu onların öz işləridir. Əslində bu onu göstərir ki, gecə müzakirələri, birgə bəyanatın imzalanması və bu bəyanatın həyata keçirilməsi yolları bütün bunlar dövlət Başçımızla əvvəlcədən çox geniş müzakirə olunub. Görünür, hər iki dövlət başçısı müəyyən razılığa gəliblər və Putin bunu yüksək qiymətləndirib. Düşünürəm ki, bundan sonra Azərbaycan üçün Rusiya tərəfdən problem yaranmamalıdır. Təbii ki, bu Ermənistanda böyük bir qıcıq yaradacaq. Çünki Ermənistan hesab edir ki, Rusiya onların müttəfiqidir. Belə olan halda Putinin açıqlamaları onların maraqlarına cavab vermir. Düzdür hələ həll etməli olduğumuz bir sıra məsələlər var və biz bu yöndə irəriləyirk. Putinin bu açıqlamalaları isə bizim irəliləyişimizdə müsbət bir fon yaradır".

***Aysel Məmmədova***

# Tarixin zibilliyinin sakinləri



***Ermənistanda baş verən hadisələr xüsusi diqqət mərkəzindədir və etiraf edək ki, hər kəsdə bir təəccüb doğurur. Çünki, əvvəla, uğursuzluqlarını, məğlubiyyətlərini, ümumiyyətlə, düşdükləri vəziyyəti təhlil edərkən bu işğalçı ölkənin ictimaiyyətindən tutmuş səlahiyyətlilərinə qədər hər bir kəs yanlış yolda olduqlarının fərqində deyillər. Digər tərəfdən də acınacaqlı vəziyyəti hər bir kəs digərinin üstünə atmaqla, bir növ günah keçisi axtarır və kimi isə cəzalandırmaqla vəziyyəti birmiş hesab edir. Halbuki, erməni cəmiyyətinin xəstə, anormal təfəkkürə malik olduğunu bircə nəfər durub deyə bilər və bu cəmiyyəti doğru yola dəvət edə bilər ki, bundan sonra insan cəmiyyəti kimi yaşasınlar, erməni cəmiyyəti kimi deyil.***

Dünən Ermənistan prezidenti Armen Sarkisyan Nikol Paşinyanın istefası və erkən seçkilərə ehtiyac olduğunu açıqlayıb. Bəzi siyasi və ictimai dairələr Armen Sarkisyanın video mesajına xüsusi həvəs göstərir, bəziləri onu baş nazir vəzifəsini icra edən kimi görürlər. Hətta bir çoxları prezidentin cəsarətinə heyranlığını da ifadə edirlər. Maraqlıdır, tutaq ki, Sarkisyan, yaxud kimsə bir başqası Nikol Paşinyanı ittiham etməklə erməni cəmiyyətinə nə kimi xidmət edir və ermənilər nəyin axtarışındadırlar? Bu toplum səhvin harda olduğunu axtarır, yoxsa səhv olan adamı? Yaxud bu hay tayfası xoş gün-güzəran, xoşbəxt gələcək axtarışındadır, yoxsa, düşdükləri vəziyyətə görə günahkar?

Bir zamanlar Ermənistan hökuməti, özü də kütlənin hay-küyündən istifadə edib hakimiyyəti qamarlayan bir hökumət, konstitusiya quruluşunu devirəndə, bütün qurulmuş sistemləri və xüsusən də Konstitusiya Məhkəməsi şəxsində məhkəmə sistemini dağıdanda niyə bu erməni cəmiyyəti həyəcan təbili çalmırdı? O zaman günahkar axtaran niyə yox idi? Bəlkə repressiyalar zamanı günahkarın kimliyi bilinmirdi? Nikol adında bir küçə nümayişçisi ağzına gələni danışanda, ağlına gələni edəndə bu erməni cəmiyyəti harada idi? Baş naziri sərxoş vəziyyətdə özgə torpaqlarında çəpik çalıb oynayanda, əvəzində isə, beynəlxalq tribunalarda dili topuq vuranda, gülünc duruma düşəndə, diplomatik məğlubiyyətlərlə ölkəsinə qayıdanda necə, yatmışdı bu ermənilər? Görmürdülərmi ki, beynəlxalq platformalarda həqiqət, haqq qarşısında bir-birinin ardınca məğlubiyyətlərlə qarşılaşırlar? Ümumiyyətlə, haqsız olduqlarına, xəstə, çürük əqidəyə qulluq etdiklərinə görə, əsassız iddialarına, ədalətsiz mövqeləri səbəbindən düçar olduqları məhrumiyyətlər, düşdükləri durum onları ayıltmadımı?

Son hadisələr, Ermənistanda baş verənlər, erməni cəmiyyətinin günahı deyil, günahkarı axtarması təsdiq edir ki, onlar hələ də ayılmayıblar. Tarixə ekskursiya etsək görərik ki, öz xəstə ideyaları, başlarından böyük iddiaları səbəbindən dəfələrlə faciələrlə üzləşən, məhrumiyyətlər görən, acınacaqlı, rüsvayçı məğlubiyyətlər yaşayan bir toplum görünür, yenə də lazımi dərs ala bilməyib. Böyük Ermənistan dedikdə hər dəfə burnu ovulan ermənilər ya burunlarının ovulmağına öyrəncəli olublar, ya da hər tərəfə soxulan bu burunlar ovulmaq üçün yaranıb.

İndi Azərbaycana, Türkiyəyə, hətta onların haqsız, ədalətsiz olan mövqelərini nə əcəbsə dəstəkləməyən Rusiyaya antipatiya sergiləyənlər öz hökumətlərinə və tərəfdarlarına, onlar milli dəyərlərini murdarladıqda, erməni kilsəsinə hücum etdiklərində, Ermənistan tarixini dərsliklərə məcburi mövzu kimi daxil etmədikdə niyə nifrət bəsləmədilər? Bu işğalçı dövlətin başçısı transgender Mel-i şəxsi müdafiəsinə götürdükdə erməni cəmiyyəti susdu, səssiz qaldı. Bütün dəyərləri tapdalandıqda buna müşahidəçi mövqe sergiləyənlər, indi onlara məxsus olmayanın əllərindən getməsinə görə şüvənlik edirlər.

Oxşar məntiq və mənzərə Dağlıq Qarabağ ərazilərindən köçərkən ermənilərin özləri ilə tanklarını deyil, unitazlarını aparması faktında da təzahür etdi. İşğal etdikləri torpaqları tərk edənlərlə bağlı daha bir dəhşətli fakt isə odur ki, unitazı ilə bərabər qapı-pəncərəsini, həyətlərdəki kötükləri, bütün zir-zibillərini belə götürüb aparanlar gedərkən azyaşlı uşaqlarını qoyub gediblər. Nəinki insan cəmiyyətində, canlı təbiətdə, heyvanat, yaxud bitgi aləmində belə bu məxluqların oxşarlarına kiminsə rast gələcəyinə zərrə qədər ümidi olmasın. Unitazını aparıb balasını yaddan çıxarana nə ad verməl olar? Mən belə bir ad tanımıram və kimsə belə bir yaradılışla rastlaşıbsa, adını deməsini xahiş edirəm ki, onu da tanıyaq.

Sadalanan bu dırnaqarası "keyfiyyətlərə" sahib insanlar kimi müzakirə edirlər, özlərindən olan birinimi? Balasını atıb unitazını iki əllə tutan və sonra da özünə xalq deyən toplum öz içindən çıxandan nə gözləyir? Bu arada qeyd edək ki, bir çoxları Nikol Paşinyanı yeddi ölkənin təyin etdiyi casus hesab edir və onun Ermənistana xüsusi tapşırıqla göndərildiyinə də əminliyini ifadə edir. Nikolu qətiyyən müdafiə etmək fikrində deyilik və bircə onu xatırlatmaq istərdik ki, bütün mövcudluğu dövründə xəyanət, cəsusluq edən, satılan bir tayfanın içindən çıxan nə şəkildə olmalıdır?

İndi ermənilər müharibədə məğlubiyyətə görə Nikol Paşinyan və onun komandasını tarixin zibilliyinə göndərmək şüarı ilə çıxış edirlər. Maraqlıdır, məğlub olan təkcə Nikol hesab olunurmu? Məgər ermənilər öz çürük əqidələri, əsassız və başlarından böyük iddiaları ilə birlikdə məğlub deyillərmi? "Böyük Ermənistan" xülyasında olanlar döyüş zamanı kiçik Ermənistanı da itirmək qorxusu keçirmirdilərmi? Sonda ölkəsinin məğlubiyyətlərini təsdiq edən sənədə təkcə Nikol Paşinyan imza atsa da, bu məğlubiyyət ümumiklikdə Ermənistanın məğlubiyyəti deyildimi və itirmək qorxusu yaşayanlar üçün bu vəziyyətdən çıxmaq göydəndüşmə olmadımı? Qorxusundan siçan deşiyi axtaran erməni əsgərlərinin işğal etdikləri torpaqlarda əvvəlcədən acdıqları deşikləri də Nikol Paşinyan qazıb hazırlamışdımı? Xeyr, Azərbaycan Ordusunun xofu, məğlubiyyət qorxusu bunların yuxularını düz 30 il ərşə çəkib və bu günlər onların yuxularının çin olan günüdür. Nəzərə alsaq ki, ikicə gün müharibənin davam edəcəyi təqdirdə erməni əsgəri tamamilə qırılıb qurtaracaqdı, təkcə Paşinyan yox, bütün ermənilər tarixin zibilliyinə atılacaqdı, tam əminliklə deyə bilərik ki, bunlar şadlıqlarından şitlik edirlər. İndi Paşinyanı, Sarkisyanı, Arutyunyanı, Ovannisyanı və digər səlahiyyətliləri tarixin zibilliyinə göndərmək istəyən ermənilər bilməlidirlər ki, bu axmaq, çürük əqidə ilə, başlarından böyük olan əsassız iddialarla, işğalçılıq siyasəti ilə özləri hamılıqla tarixin zibilliyinə üz tutublar. Bir zaman Əmir Teymur tərəfindən tarixin zibilliyinə göndərilməsi planlaşdırılan bu qaraçı tayfası bu aqibətdən o zaman və onun ardınca bir neçə dəfə yaxa qurtarsa da, məlum olur ki, onlar bu düşüncə, bu əqidə, bu xəstə təxəyyüllə özləri özlərini elə həmin o zibilliyə, tarixin zibilliyinə göndərəcəklər. Görünür, niyyəti hara mənzili də ora olanlar kimi, başda elə baş nazirləri olmaqla bu tayfa tarixin zibilliyinin sakinləridir.

***İnam Hacıyev***

## "Arayik Arutunyanın mövcudluğuna son qoyulmalıdır"



"Fransa prezidenti E. Makron Rusiya prezidenti V.Putinlə Minsk qrupu çərçivəsində danışıqların aparılmasının vacibliyini qeyd edib. Hətta ABŞ dövlət katibi M. Pompeoda Minsk qrupu çərçivəsində danışıqların vacibliyindən söz açıb. Azərbaycan üçün Minsk qrupu artıq fəaliyyətini bitirib". SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, bu format təkcə, Ermənistan və Fransaya lazımdır ki, Türkiyəni prosesdən uzaqlaşdırsın və hazırda Qarabağın onların nəzarətində hissəsində idarəetmə yaratsınlar: "Rusiyada burada maraqlıdır. Sadəcə ABŞ Minsk qrupunun bərpasında ona görə maraqlıdır ki, Rusiyanın burada təsirlərini zəiflətsin. Məhz üç həmsədr ökə öz maraqlarına görə 30 il ərzində münaqişə həll etmədi. Hazırda da çalışırlar ki, Qarabağa hazırkı mövqeləri çərçivəsində bir avtonom idarə sistemi tətbiq edilsin. Ona görədə bu formata qayıtmaq planından danışırlar. Azərbaycan qəti şəkildə Minsk qrupu çərçivəsində danışıqlara qayıtmammalı, imtina etməlidir. Bu, bizim maraqlarımıza uyğun deyil.

Prezident İlham Əliyevdə yenidən Qarabağın statusu olmayacağını mesajını verdi. Azərbaycana bu ayın sonuna kimi üç rayon qayıtdıqdan sonra, Xankəndindəki separatçıların rəhbəri Arayik Arutunyanın mövcudluğuna son verilməlidir. Artıq prosesdə Ankara-Moskva və Bakı formatı var.

Qeyd edim ki, Rusiya və Türkiyə arasında Monitorinq Mərkəzi yaradıldıqdan sonra, atəşkəsə nəzarət ediləcək. Hazırda Ermənistan silahlı Qüvvələri bəyannamədə olduğu kimi ərazilərdən çıxarılır. Qarabağın müəyyən yerlərində "Müdafi ordusu" adında silahlı birləşmələr var. Onalrında bu ərazilərdən Agdam və iki rayondan çıxarılması baş tutacaq. Bu silahlı birləmələr Xankəndində də qalmamalıdır. Rusiya üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək bu silahlı birləşmələri çıxarmalıdır. İmza atılan Bəyannəmədə bütün hərbi birləşmələrin Azərbaycanın işağl olunmuş ərazilərindən çıxarılması qeyd edilir.

Rusiyanın Xankəndindəki Sülhməmlı Qüvvələrinin komandanlığı öz missiyasına uyğun olmayaraq Arayik Arutunyanla görüşlər keçirir. Türkiyə TSK Şuşada, Hadrutda və Kəlbəcərdə olandan sonra, proseslər heçdə Xankəndində hazırda davam edən proseslər kimi olmayacaq. Çox fərqli proseslərin şahidi ola bilərik".

## Mikael Minasyan: "Rusiya Ermənistanın yerinə danışıqlar aparır"



***"Müharibə başlayandan bəri dörd tərəf olub: ordu, müttəfiq, satqın hakimiyyət və düşmən". SİA xəbər verir ki, bunu "Facebook"da Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan yazıb. O, iddia edib ki, hakimiyyətin xaotik, məntiqsiz və siyasi müdaxilələrinə baxmayaraq, "ordu döyüşüb".***

"Kömək lazımınca olmaya bilər, amma heç vaxt qiymətləndirilməmiş ola bilməz", yazan Minasyan bildirib ki, Rusiya Ermənistanın cənubunu saxlayıb və Yersaxdan Mehriyə qədər sərhədlərin toxunulmazlığını təmin edib: "Rusiya Ermənistan respublikasında müharibəni saxlayıb. Müharibənin ilk günlərindən Rusiya erməniyönümlü əsaslı təkliflər irəli sürüb", yazan Minasyan əlavə edib ki, fəlakətin baş verməməsinə yol açmaq yerinə hakimiyyət bütün təklifləri rədd edib və məsələni kapitulyasiyaya qədər gətirib çıxarıb: "Detallar çoxdur: hərbi yardımdan diplomatik işlərə və o cümlədən, Ermənistanın yerinə bizim qonşularımızla danışıqlar aparmağına qədər. Bugünlərdə Ermənistanın kompleks hörümçək torunda ilişibqaldığı bir zamanda Rusiya fəlakətli fəaliyyətsizliyi görüb bütün bunları aradan qaldırmaq missiyasını üzərinə götürdü".

***Rövşən***

## İqor Korotçenko: "Erməni yönümlü telegram kanalları maliyyəsiz və işsiz qalıblar"

"Dəqiq informasiya mənbələrindən daxil olan məlumata görə, erməni yönümlü telegram kanallarının administratorları və sahibləri olan bir sıra Rusiya vətəndaşları Qarabağda müharibənin başa çatmasından və atəşkəs razılaşmasından sonra işsiz və maliyyəsiz qalıblar". SİA xəbər verir ki, bu barədə rusiyalı politoloq İqor Korotçenko özünün telegram kanalında yazıb. Onun sözlərinə görə, onlar artıq İrəvanda gediblər. "Onlar Ermənistandakı dövlət orqanlarına və xüsusi xidmət orqanlarına müraciətlər edərək, iş təklifi edir, özlərinə maliyyə dəstəyi axtarırlar", deyə Korotçenko yazıb.

***Rövşən RƏSULOV***

# Tarixi zəfərlə müşayiət olunan ədliyyə günümüz



**Hicran Hacıyeva
4 saylı Bakı “ASAN xidmət” mərkəzində notariat ofisinin notariusu**

28 may 1918-ci ildə Şərqdə ilk parlamentli dövlət kimi yaradılan Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyət göstərmiş və dövlətçilik ənənələrini davam etdirmişdir. Amma son dərəcə gərgin ictimai-siyasi şəraitdə cəmi 23 ay yaşayan Cümhuriyyət demokratikləşmə, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq və digər sahələrdə atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz izlər buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi diqqət yetirdiyi sahələrdən biri də ədliyyə sistemi olmuşdur. Bunu təsdiq edən faktlar isə yetərincədir və görülmüş işlər göz qabağında olmuşdur. Ədliyyə Nazirliyi ilk günlərdən ölkədə qarmaqarışıqlıq zamanı dağıdılmış məhkəmə aparatı sistemini, birinci növbədə Bakı və Gəncə dairə məhkəmələrinin və onların yanındakı prokuror nəzarətinin, habelə yerlərdə barışıq məhkəmələrinin fəaliyyətini bərpa etməyə başladı. 1918-ci il oktyabrın 9-da Fövqəladə Təhqiqat Komissiyası Ədliyyə Nazirliyinin sərəncamına verildi.

Qısa müddətli fəaliyyəti dövründə Ədliyyə Nazirliyi ölkədə hüquq-mühafizə orqanlarının təşkili ilə yanaşı, hüquq-mühafizəsi, qanunvericilik, normativ aktların hazırlanması və tətbiqi sahəsində də böyük işlər gördü. Bu sıraya məhkəmə sahəsində işlərin bərpası ilə əlaqədar Ədliyyə Nazirliyi Məhkəmə Palatasının yaradılması barədə məsələ qaldırılmasını və sonra həmin Əsasnamənin təsdiq edilməsini də aid etmək olar.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkədə hüquq ədəbiyyatı kitabxanası yaratmaq məqsədilə xüsusi vəsait ayırdı. Ədliyyə Nazirliyi yanında hüquqşünaslar üçün pulsuz kurslar təşkil olundu. Bir sözlə, o vaxtkı vəziyyətin məhdudluğuna baxmayaraq, istiqlalçılar tərəfindən ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı istiqamətində xeyli işlər görüldü.

Cümhuriyyət dövrü Azərbaycanın keşməkeşli inkişaf yolu keçmiş ədliyyə sisteminin parlaq bir səhifəsini təşkil edir. Azərbaycan 1920-ci il aprelin 28-də Rusiya tərəfindən işğal olunandan sonra ədliyyə sistemində yeni rejimə uyğun köklü dəyişikliklər getdi.

Azərbaycanda ədliyyə işinin təkmilləşdirilməsi ümummilli lider Heydər Əliyevin respublikaya birinci rəhbərlik etdiyi dövrə təsadüf edir. Ulu öndərin rəhbərliyi altında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş, bu qurumun sabit işi təmin olunmuş, gələcək inkişafı üçün zəmin yaranmışdı.

Qeyd edək ki, dövlət müstəqilliyi əldə edildəndən və ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə çatdırılması yönündə xeyli iş görülmüşdür. Hər şeydən əvvəl müstəqil dövlətimiz demokratiya yolunu seçərək, bu istiqamətdə bütün maneələri dəf etdi, həyata keçirdiyi uğurlu demokratik islahatları ilə dünyanın diqqətində dayandı. Bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu nəhəng işləri sonrakı dövrdə onun layiqli davamçısı cənab İlham Əliyev uğurla davam etdirdi.

Məhz bunun nəticəsidir ki, Azərbaycan imkişaf etdi və tarixi an yetişdikdə Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz Dağlıq Qarabağın işğaldan azad edilməsi üçün inanılmaz bir qələbəyə imza atdı. Milyonlarla azərbaycanlının sevincinə səbəb olan bu tarixi hadisə təbii ki, biz ədliyyə işçilərində də böyük qürur hissi yaratdı. Bununla bərabər, bir daha yəqin etdik ki, dostumuz kimdir, düşmənimiz kim.

Ən qəribəsi isə bu idi ki, demokratiyadan çox dəm vuran Avropa ölkələri apardığımız haqq mücadiləsini ya səssiz-səmirsiz seyr etdi, ya da Azərbaycana “dur” dedilər. Onlardan heç biri faşist ermənilərə “özgə torpağından çıxın!” müraciəti etmədi. Bu müharibə həm də cənab Prezident İlham Əliyevin həm əsl sərkərdə, həm də əsl diplomat keyfiyyətlərini üzə çıxardı.

Ümumilikdə, hərbi kampaniya dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Hərbi ekspertlərin, elə ermənilərin özlərinin də dediyi kimi, “kim Şuşaya nəzarət edirsə, Qarabağa da o nəzarət edir”.

Şuşa azad edildikdən dərhal sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunası barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Beləliklə, hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir.

Dağlıq Qarabağ münaqişəsi bitdi: İmzalanan bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır.

Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Dünya hərb tarixi də göstərir ki, belə itkilərə məruz qalmış tərəf məğlub hesab edilir, təslim olur və hərbi əməliyyatlar dayandırılır.

Əsgər və zabitlərimiz döyüşlərdə misilsiz şücaətlər göstərdilər, Vətən uğrunda canlarından belə keçdilər. Ali Baş Komandanımız və şanlı ordumuz erməni fitnəkarlığına, erməni faşizminə son qoylu. Mənfur qonşularımız 200 ildən bəri davam edən çirkin əməllərinə görə öz cəzalarını aldılar. 10 noyabr 2020-ci ildə üç dövlət başçısının imzaladığı tarixi bəyanat Azərbaycanın tam qələbəsinə yol açdı. Sonrakı proseslərdə Rusiya və Türkiyənin iştirakı isə gələcək perspektivlər üçün önəm daşıyır və şimal qonşularımızın sülhməramlı əsgərlərinin Dağlıq Qarabağa təşrifi də narahatlıq doğurmamalıdır. Bəzilərinin bu xüsusda obyektivlikdən kənar fikirlər səsləndirməsi isə sadəcə təəssüf doğurur.

Vətən müharibəsində Azərbaycanın qələbəsi və Ermənistanın məğlubiyyəti tarixi haqsızlığın qarşısını aldı və ərazi bütövlüyümüz bərpa olundu. Çox sevindirici haldır ki, bu ilki “Ədliyyə işçilərinin peşə baytamı günü” məhz zəfər günləri ilə eyni vaxta düşür və bu sevincimizi daha da artırır. Yenə uzun illərdən sonra böyük qürur hissi ilə deyirik: “Qarabağ Azərbaycandır!”

# Azərbaycan dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirilir

*Prezident İlham Əliyev: “Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik”*

**Tarixin müxtəlif dönəmlərində Azərbaycan tolerant mühiti, multikultural dəyərləri ilə seçilən məkan olub. Ölkəmiz hər zaman sülsevər dövlət kimi, dünyaya multkultural dəyərələrini, tolerant mütiti ilə özünün xoşməramlı mesajlarını göndərir. Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr mövcud mühitin təzahürüdür. Multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri əsrlərdir dinc yanaşı yaşayır, qurub-yaradırlar.**



Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərlir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Bu gün Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrində böyük hörmətlə yanaşan bir ölkədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Əlbəttə ki. dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycanda həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur, abadlaşır. “Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir”, deyən dövlət başçısı real mənzərə əsaslanaraq bu fikirləri söyləyir. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda olan mühitin təzahürüdür. Bu müxtəlif dinlərə olan münasibətdir. Azərbaycanın həyata keçirdiyi layihələr sırasında Azərbaycan Prezidentinin yardımı sayəsində Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidinin də vurğulamaq yerinə düşər. Bu, Azərbaycanın Rusiya, Qafqaz, Şimali Osetiya-Alaniya ilə ənənəvi tarixi mədəni-mənəvi əlaqələri baxımından, xüsusi əhəmiyyət daşıyan bir hadisədir. Azərbaycan Prezidentinin qayğısı sayəsində yenidən qurulmuş Muxtarov məscidi xalqlarımız arasında mənəvi dostluq abidəsi olaraq qiymətləndirilir.

### AZƏRBAYCAN DÜNYA MİQYASINDA DA XRİSTİAN İRSİNİN QORUNMASINA TÖHFƏLƏR VERİB

Vurğulayaq ki, ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-cı ilin oktyabr ayında respublikamıza səfəri zamanı Azərbaycanı dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirmişdi.

Son illərdə Rus Pravoslav Baş Kafedral Kilsəsi, “Xilaskar” Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bundan əlavə, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələr verib. Ölkəmizin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış “Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş” çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası və s. ölkəmizin dini tolerantlığının nümunəsidir.

Bütün bunlarla yanaşı, Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib. Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. Xarici İşlər Nazirliyinin hazırladığı “Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi” və “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması” adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstəriblər. Yerəvandakı Dəmirbulaq məscidi yer üzündən silinib.

### “GÜN GƏLƏCƏK BİZ ŞUŞA ŞƏHƏRİNDƏ ERMƏNİ VANDALLARI TƏRƏFİNDƏN DAĞIDILMIŞ MƏSCİDLƏRİMİZİ BƏRPA EDƏCƏYİK VƏ BU GÜN GƏLİR”

Artıq zaman yetişib. Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikəcək, yenidən bərpa edəcəkdir. Azərbaycan Prezident İlham Əliyevin bildirdiyi kimi, bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir: “Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tahir Rzayev: “Xalq bu günləri unutmayacaq”

***“Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş Fizuli və Cəbrayıl rayonlarına səfəri dövlətimizin başçısının daim xalqla bir olduğunu, vətəndaşlarımıza arxalandığını və onlara xidmət etdiyini bir daha nümayiş etdirdi”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.***



Tahir Rzayev bildirib ki, cənab İlham Əliyev indi bu rayonlara müzəffər və qalib ordunun mətin, qalib sərkərdəsi kimi səfər edir və bu bizim hər birimizdə qürur doğurur. Çünki az bir müddətdə - 44 gün ərzində 30 il işğal altında olan, məkirli düşmənin beton piltələrlə möhkəmləndirdiyi sədləri tez bir zamanda keçmək, hər gün neçə - neçə kəndi, şəhəri təcavüzkarlardan azad etmək məhz mətin iradə, cəsarət, vətənpərvərlik tələb edirdi ki, bunu Ali Baş Komandanın tapşırıqları və düşünülmüş planları sayəsində Azərbaycan ordusu bacardı.

“Bu tarixi bir qələbə idi, əsrlərlə xalqımızın yaddaşından, tarixdən silinməyən, unudulmaz bir döyüş idi. Azərbaycan Respublikasının Prezidenti səfər zamanı fəxrlə bildirmişdir ki, biz artıq işğaldan azad olunmuş ərazilərimizdə abadlıq işlərinə başlamışıq, şəhər və kəndlərimizi bərpa edəcəyik. Fizulidən Şuşa şəhərinə yol çəkirik. Düşmən isə ərazilərimizi tərk edərkən yenə də vəhşilik törədir, evləri yandırırlar, meşələrə od vururlar, əsil həyasılıq, vicdansızlıq göstərirlər. Ölkə rəhbəri bir daha xatırlatmışdır ki, biz düşməni əzdik, məğlub etdik, sözümüzü yerinə yetirdik. Prezidentin bu səfəri xalqımız tərəfindən ruh yüksəkliyi ilə qarşılanmışdır. Çünki torpaqlarımızın azad olunması, Şuşada bayrağımızın ucaldılması, Qarabağın tacı olan bir şəhərin düşməndən təmizlənməsi xalqımızın müqəddəs arzusu, məqsədi idi və bunu Ali Baş Komandanımız qəhrəmanlıq göstərərək bacardı. O xalqına verdiyi vədə, “Qarabağ Azərbaycandır” andına sadiqliyini bütün dünyaya nümayiş etdirdi və yeni, unudulmaz bir tarix yazdı”- deyə, komitə sədri vurğulayıb.

# “Ali Baş Komandan son nidanı qoydu”



***“Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Füzuli və Cəbrayıl rayonlarına, şəhərlərinə səfər, Xudafərin körpüsünü ziyarət etməklə həm Azərbaycan tarixində şanlı səhifə yazdılar, həm də dünyaya “Qarabağ Azərbaycandır!” mesajının gerçək olduğunu göstərdilər”. Bunu SİA-ya Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzinin sədri, tanınmış jurnalist Cavid Şahverdiyev deyib.***

QHT sədrinin sözlərinə görə, Ali Baş Komandanın Füzuli rayonunda əhali tərəfindən izdihamla qarşılanması ona olan inam və etibarın göstəricisi idi: “Bu dünyaya bir mesaj oldu - Azərbaycanda xalq-ordu-hakimiyyət birliyini heç bir qüvvə sarsıda bilməz. Heç bir qüvvə bu barədə düşünməsin, qarşılarında güclü Azərbaycan, məğlubedilməz ordusu və iradəli xalqını görəcəklər. Bu birliyin, həmrəyliyin nəticəsi 44 günlük döyüşün qələbə ilə başa çatmasıdır”.

C.Şahverdiyev onu da qeyd edib ki, Ali Baş Komandanın adıçəkilən rayon və şəhərlərdə Azərbaycan bayrağını qaldırmqla xalqımızın heç bir zaman işğalla barışmayacağı və düşmənə qarşı həmişə amansız olacağı mesajını verdi: “Prezidentin həmin səfərdə söylədiyi hər bir fikir xalqa verilən sözün əməli sübutuydu. 17 il aparılan müdrik siyasətin nəticəsi güclü Azərbaycan dövlətinin qurulması, xalqda liderinə inam, etibarı qazandırması, xalqın lideri ətrafında birləşməsi və sonda Qarabağın işğalçılardan azad edilməsidir. Ermənilərin viranə qoyduğları şəhər, kənd və qəsəbələrimizin Prezident İlham Əliyevin tapşırığı ilə yaxın aylarda cənnətə çevriləcəyinə da xalqımız inanır”.

QHT sədri Prezident və birinci xanımın işğaldan azad olunan rayon və şəhərlərimizə dünən etdikləri səfərlərin sosial şəbəkələrdə geniş işıqlandırılması və müsbət fikirlərin söylənilməsini də xalqımızın Ali Baş Komandana olan sədaqətindən, etibarından irəli gəldiyini qeyd edib: “Bütün sosial şəbəkələr, qruplar, səhifələrdə səfərdən çəkilən fotolar paylaşılıb. Ali Baş Komandanımızın ünvanına fərəh, sevinc dolu mesajlar yazılıb. Bu da bir daha Azərbaycan xalqının Prezident İlham Əliyevlə fəxr və qürur duyduğunun bariz nümunəsidir”.

C.Şahverdiyev onu da vurğulayıb ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tarixi Xudafərin körpüsünü ziyarət etməsi milli-mənəvi dəyərlərimizə sayğının bir nümunəsidir: “Səfər Azərbaycanın qələbəsini şübhə altına almaq istəyən ermənipərəst ölkələrə də sərt sillə oldu. Bu məsələdə də Ali Baş Komandan son nidanı qoydu. Azərbaycanın işğal altında saxlanılan, 30 ildə dağıdılan bütün şəhər və kəndləri tarixi sahibinə qaytarılmalıdır və məcburən qaytarılır. Bir daha işğal fikrinə düşmək istəyən qüvvələr 44 günlük döyüşdə əldə edilən qələbəni göz önünə almalıdırlar”.

***Gülyana***

# “Putin Paşinyanı “baqaj”a qoydu”



***“Rusiya prezidenti Vladimir Putin “Rossiya” kanalına dünənki müsahibəsində Dağlıq Qarabağla bağlı xeyli mətləbə toxundu. Birincisi, Putin Azərbaycan prezidenti və Ermənistanın baş naziri ilə telefon danışıqlarının detallarına toxundu. Putin Paşinyanı baqaja qoydu, bəlli oldu ki, Ermənistanın baş naziri Şuşa uğrunda döyüşməyə davam edəcəklərini Kreml sahibinə bildirib”. Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.***

Politoloqun sözlərinə görə, ancaq Putinin çıxışında bizim üçün təhlükəli məqamlar da az deyildi: “Kreml sahibi Dağlıq Qarabağın “status-kvosunun” davam edəcəyini vurğuladı. Bu o deməkdir ki, ordakı separatçılar və onların qanunsuz silahlı qüvvələri fəaliyyətlərini davam etdirə bilərlər. Jurnalistin “Rusiya Dağlıq Qarabağı tanıya bilərmi” sualına isə cavabı belə oldu: “Biz Abxaziyanın və Cənubi Osetiyanın müstəqilliklərini tanıdıq, Krımın özmüqəddarıtını qəbul etdik...” Yəni Kreml sahibi bununla sanki demək istədi ki, “hərbçilərimizə bir şey olsa, Azərbaycana problem yarada bilərik”. Cənubi Osetiyanın “tanınması” məhz sülhməramlılarla əlaqəli olmuşdu. Putin müharibə dövründə Ermənistana kifayət qədər silah və hərbi sursat göndərdiyini ilk dəfə açıqlamış oldu. Putin dedi ki, müharibə zamanı hərbi balansın Ermənistan əleyhinə yönəlməməsi üçün bu ölkəyə hərbi texnika göndərirdi.

Putin Türkiyə haqqında da fikirlərini bölüşdü. Kreml sahibi faktiki Türkiyənin sülhməramlı əməliyyatında iştirakının əleyhinə olduğunu vurğuladı. Putin bunu deyərkən ermənilərin etirazına istinad etdi: “Ermənilər ötən əsrin əvvəllərindəki soyqırımı unutmayıblar”. Yəni Putinin sözlərinə görə, Türkiyə sülhməramlıları ermənilərə psixoloji təzyiq vasitəsi ola bilər. O bunu istəmir. Ancaq Putin sözlərinə onu da əlavə etdi ki, Azərbaycan istəsə Türkiyə hərbçilərini ərazisinin istədiyi hissəsində yerləşdirə bilər. Putin Rusiya ilə Türkiyə arasında tarixi düşmənçiliyin arxada qaldığını da sözlərinə əlavə etdi. Başqa sözlə Kreml sahibi demək istədi ki, iki ölkənin maraqları arasındakı fərqlərə baxmayaraq, ortaq fəaliyyət də az deyil”.

***Ceyhun Rasimoğlu***

# Hrant-Melik Şahnazaryan: “Nikol, sən düz cəhənnəmə, özü də tək getməli olacaqsan”

***Politoloq Hrant-Melik Şahnazaryan baş nazir Nikol Paşinyanın ölkəni mövcud vəziyyətdən çıxarmaq üçün hazırladığı yol xəritəsinə münasibət bildirib. SİA armenianreport.com-a istinadən xəbər verir ki, politoloq bu barədə öz Facebook səhifəsində yayımlayıb.***



**Məlumatda bildirilir ki, Şahnazaryan erməni baş nazirin “xəritəsini” şərh edərək, bunu utanmazlıq adlandırıb.**

**“Nikolun utanmazlığı, həyasızlığı sərhəd tanımır. Təslim müqaviləsini imzalamasından bir həftə keçib. Bu günə qədər bu hökumət vəziyyəti düzəltmək üçün heç bir addım atmayıb. Tamamilə əksinə, Ermənistan üçün bu fəlakətli məqamda belə, heç olmasa kiçik bir fürsət tapmağa çalışan hər kəsi təqib edib, həbs edib. İndi sanki yuxudan oyanan Nikol tərəddüd etmədən onu lənətləyən insanlara bir növ yol xəritəsi təklif edir.**

**Bu baş berməyəcək, Nikol! Sən və mən eyni bir yolda deyilik. Bir metr belə yolumuz eyni deyil. Sən düz cəhənnəmə, özü də tək getməli olacaqsan. Biz bu gecə saat 18:00-da Azadlıq Meydanında toplanacağıq. Toplanaraq bütün yalançılara və onların xain planlarına qətiyyətlə “yox” deyəcəyik”, deyə Hrant-Melik Şahnazaryan öz sosial şəbəkə hesabında bir yazı paylaşıb.**

***İnam Hacıyev***

# 28 illik ömrün şəhidlik zirvəsi

***Bu gün milyonlarla insanın qüruruna çevrilən Azərbaycan ordusu tariximizin yeni salnaməsinə qəhrəmanlıq tarixini yazdı. Dünyanın ən müqəddəs bir zirvəsinə yüksələrək qanı ilə torpaqlarımızı suvararaq şəhidlik zirvəsinə yüksəldi vətən oğulları. Torpaq nəfəs aldı şəhid qanı ilə. Torpaq sanki rahatlığına qovuşdu. 30 illik zaman məsafəsində dinclik biləyən işğal altında olan cadarlanmış 20 faiz Azərbaycan torpağı yenidən öz sakinlərini ağuşuna alacaq günün həsrəti ilə igid, qəhrəmin, mərd insanlarının üzərində gəzəcəyini duyaraq elə insanları kimi bu gün çox məğrurdur. Neçə-neçə şəhid bu torpağa "Can Azərbaycan" deyərək canını fəda etdi. Şəhid oldu. Bu gün onların hər birinin həyat yolu bizlərə, yetişəcək gələcək nəsillərə bir nümunədir, ərənlik, kişilik məktəbidir.***

Elə haqqında söhbət açağımız Azərbaycanın şəhid oğlu Kamran Quliyev Dadaş oğlunun vətənpərvərlik, qeyrət simvoluna çevrilən bir ömür yolu kimi. Vətən ucalığı, vətən sevgisi bir oğulun da ömür yolunu yarımçıq qoysa da ona əbədi yaşamaq hüququnu verdi. Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı Kamran Quliyev. Üçrəngli bayrağımızın uca tutulması onun müqəddəs amalı idi.



Əfsanələşən bir ömür payı. Bu Kamrana da nəsib oldu. Çox ağır və qürurludur şəhid oğullardan yazmaq. Bəzən düşünürsən ki, birdən hansısa bir fikri onun ünvana söyləyərkən qəhrəman oğullarımızın hünərini, vətənpəarvərlik duyğularını lazımı şəkildə ifadə edə bilməzsən. Belə insanların ömür yolundan yazmaq şərəfdir. Qəhəmanlıq zirəsinə yüksələn Quliyev Kamran Dadaş oğlu zirvədən enməyəcək bir yüksəklikdə özünün əbədi məşəlini yandırdı. Hamı kimi uşaqlıq illərini yaşadı. 1992-ci ilin 11 may tarixində Salyan rayonunda dünya gəldi- Şuşanın işğalından üç gün sonra, Azərbaycan da hadisələrin gərgin olan bir dövründə. Ermənilər ötən əsrin 90-cı illərinin əvvəllərində dünya ictimaiyyətinin gözü qarşısında Azərbaycanın tarixi torpaqları olan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı kimi məkanlarımızı işğal etdi. Əlbəttə ki, körpə böyüdükcə onun torpağa, elə-obaya bağlılığı yoğrulduğu ana laylalarından kök atmağa başlayır. Kamranın da ana laylasından, ana südündən vətənə sevgi bütün varlığına hopur. Vətənlə bağlı düşüncələri, vətənpərvərlik tərbiyəsi, vətəni sevmək kimi ali dəyərləri kiçik yaşlarından əxz olunur. Məktəb yaşı çatanda bütün yaşıdları kimi, birinci sinfə gedir. Salyan rayon 7 saylı tam orta məktəbdə təhsil alıb. Parta arxasında oturduğu illərdə qisası qiyamətə qoymamaq kimi fikiri vətənsevər oğullar kimi onun da ruhi, əqli, mənəvi dünyasına hakim olur. Amma bilmirdi ki, zaman yetişəcək o, bir evin, bir ailənin yox Azərbaycan dünyasının övladına çevriləcək. Onun haqqında qələmə alınacaq yazılarda igidlik, qəhrəmanlıq sücaətindən söz açılacaq. 2011-ci ildə əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsində başa vursa da elə həmin ildən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. 28 illik ömür yolunda o da çoxları kimi torpaqlarımızı işğal edib, insanları ev-eşiyindən didərgin salan düşməndən qisas almaq hissi ilə yaşayır. Ali Baş Komadanın əmrini gözləyirdi ki, düşmənə dərsini versin. Sentiyabrın 27-də Vətən müharibəsi başlayanda o da müraciət hibəyə yola düşür. Düşmənin ağır itkilərə məruz qoyulmasında onun da pay var. Tovuzdan başlanan döyüş yolu Cəbrayılda, Füzulidə davam edib. Füzuli istiqamətində aparılan hərbi əməliyyatlarda şəhid olur. 6 oktyabr 2020-ci il tarixində onun ön cəbhədə son döyüşü olur. Kamran torpaqlarımızın işğalçılardan azad olunması yolunda şəhid olur.

Dünyaya, ən əsası da erməniyə Azərbaycan gücünü, Azərbaycan oğullarının cəsarətini, qəhrəmanlığını göstərən şəhid olullarımız sırasında bu gün Kamran Quliyevin də adı var. Fəxarətimiz olan Şəhidlər. Sizlər, Kamran Dadaş oğlu elə bir abidə yaratmısan ki, kimsə buna toxuna bilməz. Torpaq yolunda Şəhidlik hər kəsə nəsib olmur. Əlbəttə ki, Kamranı yaşadığı zaman, doğulduğu torpaq, vətənpərvərlik ruhu şəhidlik zirvəsinə yüksəltdi. Azərbaycan xalqı ermənilərə dərs verdi. Qəhrəmanlıq hər həsə nəsib olmur, torpaq yolunda Şəhidlik də hər kəsə nəsib olmur. Bu adları Azərbaycan torpağının yetirdiyi oğullarımız qazandı. Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı bizim şəhid Kamran. Bu gün onun ruhu şaddır. Ali Baş Komandan İlham Əliyevin xalqımıza qələbə müjdəsini verənkən şəhidlərimizin ruhu şad oldu, onların qisası alındı.



Vətən - ərazisi, səhədləri bəlli müqəddəs məkandır. Tarix boyu yadelli işğalçıların, imperiyanın, erməni daşnaqlarının hücumuna məruz qalsa da məğrur dayanıb. Bu gün də Azərbaycanın mərd oğulları Azərbaycan ordusunun əzmini ermənilərə göstərdi. Azərbaycan ordusu mərdi-mərdanə döyüşərək düşməndən işğalda olan torpaqlarımızı azad etdi. Yağı düşmənlərimizə qarşı vuruşan oğullarımız üç rəngli - ay ulduzlu bayrağımızı işğaldan azad olunmuş torpaqlarımıza sancdılar.

Bu gün Kamranın iki övladı onun ocağında böyüyür: Tunar və Ümid. Vətən üçün əmanətdir bu oğullar. Tunar hələ həyatda nə baş verdiyindən xəbərsizdir O, 4 aylıqdır. Ümid isə 7 yaşındadır. Ordumuzun düşməni necə məhv etməsi haqqında kitablardan oxuyacaqlar, çəkilən filmlərə baxacaqlar. Azərbaycan əsgərinin işğaldan azad olan torpaqlarımaza üç rəngli müqqəddəs bayrağımız neçə sancmalarını görəcəklər. Onda atalarının müqqəddəs bir iş üçün şəhid olduğunu daha dərindən anlayacaqlar. Azad ölkədə böyüyüb boya-başa çatacaqlar. Bu torpaq hamınındır, hər bir Azərbaycanlınındır. Qorumaq, müdafisində durmaq hər birimizin məsuliyyətidir. Tökülən qanlar həsrətdən cadar-cadar olmuş Qarabağ torpağını bizlər qovuşdurdu. O yerlərə dönürük. Allah şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Putin Dağlıq Qarabağ və Türkiyə ilə bağlı nə demək istədi?



"Rusiya Prezidenti Vladimir Putinin "Rossiya-24" telekanalına verdiyi müsahibəsi, səsləndirdiyi fikirlər və sərgilədiyi mövqe bir neçə aspektdən önəmli olmaqla yanaşı, eyni zamanda bir sıra vacib məsələlərə də aydın işıq tutur. Birincisi, 10 noyabr razılaşmasından sonra Ermənistanda baş verən siyasi prosesləri nəzərə alsaq, düşünürəm ki, Putinin hazırkı vəziyyətlə bağlı mövqeyində ən əsas məqam Dağlıq Qarabağın hər zaman Azərbaycana aid olmasıyla bağlı səsləndirilən fikirdir. Bu, olduqca mühüm mesajdır. Belə ki, bu həm tarixi, həm hüquqi baxımdan ermənilərin Dağlıq Qarabağı manipuliyasiya etmək şansına birdəfəlik son qoydu. İkincisi, Rusiya Prezidenti açıq şəkildə Azərbaycanı müstəqil dövlət və etibarlı tərəfdaş kimi qiymətləndirir, onun beynəlxalq hüquqa əsaslanan özünümüdafiə haqlarını qəbul edir. Bu baxımdan Türkiyə-Azərbaycan müttəfiqliyindən bəhs edərkən Türkiyənin sərgilədiyi mövqeyinin əsla beynəlxalq hüquqa zidd olmadığını, yəni Azərbaycanın müstəqil dövlət kimi öz seçdiyi müttəfiqləri ilə birlikdə suveren hüquqlarını bərpaetmə haqlarının normal hal olduğunu və hər şeyin hüquqi kontekstdə baş verdiyini göstərir". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspertin sözlərinə görə, Putinin müsahibəsində vacib məsələlərdən biri Ermənistanın 10 noyabr razılaşmasından imtina etməsinin böyük səhv, onun intiharı kimi dəyərləndirməsidir ki, beləliklə də Ermənistanın Qarabağla bağlı hazırkı razılaşmadan imtina etməsinin qeyri-mümkünlüyü təsdiqini bir daha tapmış olur: "Məlum olduğu kimi Ermənistanda revanşist dairələr bu razılaşmadan imtina edilməsi məsələsini gündəmə gətirirlər. Putin isə bunlara cavab kimi bildirir ki, fərq etməz ya Paşinyan, ya gələcəkdə onun yerinə gələcək başqa şəxsin belə bir addım atması, buna cəhd etməsi Ermənistan üçün fəlakətə səbəb ola bilər. Yəni rəsmi Moskva hakimiyyətdə kimin olacağından asılı olmayaraq mövqeyini açıq və prinspial şəkildə ortaya qoyur. Ermənistanın savaşdan mütləq məğlubiyyətlə ayrılması və Putinin Azərbaycan ordusunun ən müasir və güclü ordulardan biri olduğunu olduqca düzgün qiymətləndirərək vurğulaması Ermənistanın ikinci dəfə savaşa girməsinin hansı sonluqla nəticələnə biləcəyinin cavabını vermiş olur. Bununla yanaşı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının buraya müdaxilə edə bilməməsini vurğulaması, heç kimin Ermənistana təcavüz etmədiyini bildirməsi də Ermənistan üçün açıq mesajdır".

Ş.Həsənova vurğulayıb ki, bütövlükdə Putinin bu müsahibəsi bundan sonrakı mərhələr və proseslər üçün regional və bütün beynəlxalq aktorlara yeni reallığı dərk etmələri üçün siqnallar ötürmüş olur: "Ən vacib məsələlərdən biri də post-münaqişə dövründə Rusiya-Azərbaycan münasibətlərinin qarşılıqlı etimad və tərəfdaşlıq əsasında daha yüksələn xətt üzrə inkişaf edəcəyi ilə bağlı daha müsbət perspektivlər yaradır ki, bu da hər iki qonşu ölkənin milli maraqlarına uyğun gəlir".

***Aysel Məmmədova***

## Daşnak həyasızlığı: yenə Qarabağa gedirlər



"Daşnaksyutun üzvləri əvvəl olduğu kimi, "Artsaxa" (dırnaqlar bizimdir) cəbhə xəttinə növbə çəkməyə gedirlər. Kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq, ölkənin təhlükəsizliyi bizim üçün əsas prioritetdir. "Artsax"da hələ çox iş var və "Artsax" özünü məğlubiyyətə uğramış hesab etməməlidir". SİA xəbər verir ki, bu barədə Ermənistanın Armenia today agentliyi daşnak fəalı Suren Parsyanın "Fecebook" səhifəsində yazdıqlarını işıqlandırıb.

Qeyd edək ki, Qarabağda Rusiya sülhməramlıları fəaliyyətə başlayıblar və onların əsas vəzifələrindən biri də qanunsuz erməni silahlılarını ərazilərdən çıxarmaqdan ibarətdir. Daşnakların həyasızlığı həm də onu sübut edir ki, erməni tərəfi ya məğlub olduğunu dərindən dərk etmir, ya da bu kimi əməlləri ilə birdəfəlik siyasi xəritədən silinmələrinə yol açırlar. Xatırladaq ki, Rusiya prezidenti Vladimir Putin də bugünlərdə bəyan etmişdi ki, erməni hərbi qruplaşmaları Qarabağı tərk etməsələr, bu, Ermənistan üçün intihar sayıla bilər.

***Rövşən RƏSULOV***

# Həmsədr ölkə Fransa Ermənistana havadarlıq edir

## *Prezident İlham Əliyev: “Heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz”*

***Bu gün şanlı ordumuzun şücaəti qarşısında davam gətirə bilməyən ermənilər ənənəvi xüsusiyyətlərini nümayiş etdirməyə başlayıblar və açıq şəkildə riyakarlıq edirlər. Açıq-aydın Fransa kimi böyük bir dövlətin rəhbəri bir yığın erməni lobbisinin əlində oyuncağa çevrilməsi, yenidən bəyanatlarla çıxış etməsində məqsəd və Avropa dövləti olaraq belə bir duruma düşməsi təəccüb və təəssüf doğurur. Dünyaya az qala sivil qaydaların daşıyıcısı olduqlarını bəyan edən bir dövlətin rəhbərinin işğalçıya açıq dəstəyi başa düşülən deyil. Çünki bütün dünya birliyi, beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın olduğunu qəbul edib. BMT Təhlükəsizlik Şurası bu ərazilərin işğalçı Ermənistan tərəfindən işğalını tanıyıb.***



Bununla bağlı BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi mövcuddur. Eyni zamanda Avropa Birliyinin, Avropa Parlamentinin Dağlıq Qarabağla bağlı konkret mövqeyi, bəyanatı mövcuddur. Bu gün Azərbaycan BMT-nin qərarlarına uyğun, bütün bəşəri dəyərləri rəhbər tutaraq öz ərazi bütövlüyünü təmin edir. Ona görə də, Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri kimi belə bir yanlış mövqe ortaya qoyması qəbul edilməzdir.

Ancaq bu gün Ordumuz cəbhədə öz gücünü nümayiş etdirərək, ərazi bütövlüyümüzü təmin edir. Diplomatiya sahəsində də ciddi uğurlarımız təmin edilib. Artıq bütün dünya Azərbaycan ərazilərinin işğal faktını qəbul edib. Dövlətimizin apardığı hərbi əməliyyatların da məhz beynəlxalq birlik tərəfindən tanınan ərazimiz daxilində olduğunu qəbul edir.

Amma nədənsə, bu gün Avropa dəyərlərini özünün ali iradəsi kimi qəbul edən Fransa dövləti və onun rəhbərliyi Ermənistanın beynəlxalq qanunlara əməl etməyərək mülki əhaliyə qarşı artilleriya silahlarından atəş açmaqla işğalçı, təcavüzkar siyasətini görmür və ona havadarlıq bu faktları görməzdən gəlir. Çünki döyüş vaxtı mülki əhalinin düşünülmüş hədəf kimi seçilməsi müharibə cinayəti hesab olunur. Sözsüz ki, bu gün də Ermənistan üçün 27 ildir vasitəçilik missiyasına zidd davranışlarını davam etdirən və sentyabrın 27-də başlanan müharibə boyunca Fransa həmsədr missiyasına əməl etmədi, işğalçı ölkəni müdafiə etmək üçün əlindən gələni etdi və edir. Fransa prezidenti Emmanuel Makron hərbi əməliyyatların dayandırılması, Azərbaycana qarşı beynlxalq rəy formalaşdırılması və cəza tədbirləri həyata keçirilməsi məqsədilə ciddi səylər göstərdi. Hətta Ermənistan hakimiyyətinin media üzərindən yaydığı feyk informasiyaları dilə gətirəcək qədər qeyri-ciddi siyasət xətti tutdu. Onu da qeyd edək ki, Fransa XİN də ardıcıl şəkildə Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən bəyanatlarının hər birində beynəlxalq hüquqa, eləcə də Fransanın həmsədr missiyasına zidd fikirlər yer alır. Həmçinin, onu da vurğulamaq lazımdır ki, erməni lobbisinin ciddi təsiri altında olan Fransa hökuməti və şəxsən prezident Makron ermənilərin dəstəyini əldə etmək üçün müharibə dövründə işğalçı ölkəyə siyasi, iqtisadi və hərbi dəstək göstərib. Bu dəstəklə yanaşı, Fransa diplomatları müharibə dövründə Avropa paytaxtlarında Ermənistanın xeyrinə iş aparırdılar. Bu fəaliyyət indi də davam etdirilir.

Makronun noyabrın 16-da Rusiya prezidenti Vladimir Putinə zəng etməsi də Fransa hakimiyyətinin və diplomatiyasının bu istiqamətdə fəaliyyətini fəal şəkildə davam etdirdiyini aydın göstərir. Makron öz məqsədinə nail olmaq üçün ardıcıl şəkildə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri ilə əlaqə saxlayırdı. Fransa prezidenti bu zənglərini həmsədr dövlətinin rəhbəri qismində həyata keçirsə də, əsas məqsədinin işğalçı Ermənistanı müdafiə etmək olduğu məlumdur.

2020-ci il, noyabrın 10-u - Azərbaycan heç bir qüvvənin tarixi ədalətin bərpa olunmasına maneçilik törətmək gücündə olmadığını bütün dünyaya göstərdi.

Bəli, bu tarixi Qələbə günü Fransanın bu cəhdləri baş tutmadı. Azərbaycan işğal altında olan torpaqları azad edərək heç bir qüvvənin tarixi ədalətin bərpa olunmasına maneçilik törətmək gücündə olmadığını bütün dünyaya göstərdi. Və bununla Fransanın da subyektiv olduğu beynəlxalq hüququ icra etdi. Belə bir sual yaranır: Fransa hakimiyyəti Paris şəhərinin Dağlıq Qarabağdakı qondarma qurumu tanımaqda məqsədi nədir?Məqsəd aydındır: Qondarma rejimin ləğv olunmuş statusu məsələsini aktuallaşdırmaq; məsələnin həllini ölü qurum kimi tanınan ATƏT-in Minsk qrupu çərçivəsində mənasız müzakirələr müstəvisinə qaytarmaq.

Lakin bu cəhdlərin heç biri nəticə verməyəcək. Bundan əvvəl də İtaliyanın bəzi şəhərləri tarixin arxivinə gömülmüş “DQR”-i tanıdı, lakin bunun heç bir praktiki nəticəsi olmadı və məsələ qısa zamanda unuduldu. Bunun da eyni nəticəsi olacaq.

### Köhnə stereotiplərin əsiri Fransa hakimiyyəti...

Bu gün baş verən proseslər onu göstərir ki, Fransa hakimiyyəti hələ də köhnə stereotiplərin əsiridir və yeni reallığı qəbul edə bilmir. Yaranmış yeni reallıq 30 il ərzində mövcud olmuş status-kvonun qorunub saxlanması məqsədi güdən prosesin davam etdirilməsini istisna edir.

Prezident İlham Əliyev: “Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq”

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxışlarında, verdiyi müsahibələrində, müraciətlərində bildirib ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik və status-kvon artıq cəhənnəm oldu: “Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!”.

Noyabrın 16-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olarkın dövlət başçımız bir daha bildirib ki, noyabrın 10-da Azərbaycan, Rusiya və Türkiyə prezidentləri tərəfindən imzalanan üç tərəfli bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur: “Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, “müstəqil dövlətdir”. Bunlar uzun illərdir “müstəqil dövlət” kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəmlə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq”.

### Azərbaycan Prezidenti status-kvonu dəyişdi və bu gün münaqişənin həlli şərtlərini indi Azərbaycan diktə edir

Bəli, Birgə bəyanatda bildirilir ki, Paşinyan bəyanatı gizlincə imzalayıb. Bu bir daha göstərdi ki, Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail olub. Fransanın Qarabağda yeni müstəmləkə dövlət əldə etmək cəhdləri puça çıxdı. Azərbaycanda güclü “Prezident-Xalq-Ordu” vəhdəti bu təzyiqləri dəf etməyə imkan verdi. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək təmkin nümayiş etdirəcək, hərbi qələbəni siyasi qələbə kimi möhkəmləndirəcək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək.

Emmanuel Makron ikinci Ermənistan dövlətinin yaradılmasının tərəfdarıdır. Amma Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan torpaqlarında ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verilməyəcək: “Belə bir məsuliyyətli dönəmdə ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın proseslərdə tutduğu mövqeyi birmənalı şəkildə pisləyirik. Fransa Prezidentinin hərbi əməliyyatlar başladığından bəri verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına ziddir və neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulmasıdır”.

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycançılıq ideyası: multimədəni cəmiyyət və ortaq dəyərlər



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

***Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti çərçivəsində hazırlanıb.***

**Ortaq dəyərlər etnik, dini, siyasi, sosial, mədəni mənsubiyyətindən asılı olmayaraq bu ölkədə yaşayan hər bir insan üçün ümumi ehkamlara söykənir**

Hər bir millətin tarix boyunca inkişaf etmiş, qorunub saxlanmış milli-mənəvi dəyərləri var və o milləti də formalaşdıran da bu dəyərləridir. Bəzən bir cəmiyyətdə müxtəlif xaqlara görə dəyişən milli dəyər anlayışı çox zaman ümumi rahatlıq və vətən naminə həmrəylik nümayiş etdirməkdir. Çünki bir milləti, cəmiyyəti var edən və daima ayaqda saxlayan da təkcə milli dəyərlər deyil, həm də ortaq mənəvi dəyərlərdir. Bir sözlə, multikultural, multikonfessional cəmiyyət forması həm bəşəri, həm milli dəyərlərə malik olan yüksək insan cəmiyyəti formasıdır.

## Azərbaycan cəmiyyətinin inkişafında multikultural zənginliyin rolu

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq və dostluq şəraitində yaşadığı ölkə kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.

Multikultural və tolerant dəyərlər ümumbəşəri xarakter daşıyır, lakin milli-mənəvi dəyərləri də özündə birləşdirir. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Bu tarixi ənənə XX əsrin sonlarında ümummilli lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilib, tolerantlıq və multikulturalizm ənənələri dövlət siyasətinin əsasını təşkil edib. Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb.

Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Azərbaycan mövcud milli-mədəni müxtəliflik və etnikdini dözümlülük mühiti olan çoxmillətli, çoxkonfessiyalı ölkə kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanıdır.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının tarixi və mədəni ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Azərbaycançılıq ideyasına uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilib, 15 may 2014-cü il tarixli sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Azərbaycanda 2016-cı il "Multikulturalizm ili" kimi qeyd olunub.

## Mədəniyyətlərin qovşağında mədəniyyət körpüsü

Ölkəmizdə mədəniyyətlərarası dialoqun formalaşmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycanın coğrafi baxımdan qərarlaşdığı məkanın Şərqlə Qərbin qovşağında yerləşməsidir.

Azərbaycan bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla öz nüfuzunu gücləndirməkdədir. Bu ideya dövlətin xarici siyasət kursunda da kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür.

Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Dünyanın müxtəlif ölkələrinin ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirildi. Bunu Azərbaycanın beynəlxalq aləmdə tanınması, tolerantlıq mühitinin genişlənməsi və inkişafı ilə əlaqələndirmək olar.

2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu Forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır.

Təsadüfi deyil ki, 2016-cı il aprelin 25-27-də Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII qlobal forumu Bakıda keçirildi. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfesiyaların, QHT-lərin nümayəndələri iştirak etdi.

VII Qlobal Forumunun Azərbaycanda keçirilməsi ölkədə multikultural və tolerant mühitin olmasının göstəricisidir. Multikulturalizmin bu formada geniş təsbit və tətbiq olunması Azərbaycanın dünyaya olan töhfələrindən biridir. Eyni zamanda, bu, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına səbəb olan siyasətdir.

## Dünyaya Azərbaycan nümunəsi

İzolyasionizm (təcrid etmə), assimilyasiya və aparteiddən fərqli olaraq, multikulturalizm - cəmiyyətdə yalnız bir hakim etnik qrupun deyil, həmçinin digər milli azlıqların və immiqrantların mədəni müxtəlifliyinin və rəngarəngliyinin mövcudiyyətidir. Dünyada fərqli adlarla öz mədəniyyətlərinin üstünlüyünü təmin etməyi qarşılarına məqsəd qoyan, digər etniklərə, immiqrantlara assimilyasiya obyekti kimi baxan, cismən, yaxud mənəvi cəhətdən əritmək, yox etmək fəaliyyətlərini tarixdə və müasir dövrümüzdə dövlət siyasətlərində ənənə halına salmış bəzi dövlətlər mövcuddur.

Multikulturalizmin müxtəlif modelləri- ABŞ, İsveç, Avstraliya, Kanada modeli kimi növləri olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-ın Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr Palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd edilənlərə bariz nümunədir.

Bu gün multikulturalizmin alternativi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir. Ümumilli lider həmişə dövlət siyasətinin həyata keçirilməsində bu dəyərlərə əsaslanıb. Heydər Əliyevin daha da inkişaf etdirib təkmilləşdirdiyi, hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən Azərbaycançılıq ideologiyası əsasən bu dəyərlərə söykənir. Bu siyasətin nəticəsi olaraq, Azərbaycan dünyada multikulturalizm və konfessional tolerantlıq nümunəsi kimi tanınıb.

26 noyabr 2015-ci ildə Bakıda keçirilən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasında çıxış edən Prezident İlham Əliyev deyib: "Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Sadəcə olaraq bəzi siyasətçilər, ictimai xadimlər öz çıxışlarında daha da diqqətli olmalıdırlar. Çünki multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə, biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq."

## Azərbaycançılıq ideyası ortaq dəyərlərin məcmusudur

Ölkəmizdə multikulturalizm və tolerantlıq uzun əsrlərdir ki, alternativi olmayan həyat tərzinə çevrilib. Müasir dövrdə də Azərbaycanda həyata keçirilən siyasət dövlətin multikulturalizm və tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir.

Bütün dünyaya məlum olduğu kimi, Azərbaycanda heç kim dininə və əqidəsinə görə ayrı-seçkiliyə, təzyiqlərə məruz qalmır. Dünyəvi dövlət olaraq müasir, demokratik bir cəmiyyətə malik Azərbaycanda dini azadlıqlar maksimum təmin edilib. Ölkəmiz özünün dövlət-din, cəmiyyət-din münasibətləri modeli ilə dünyanın ən yaxşıları sırasındadır.

Ümumilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev də hər zaman dini dəyərlərə böyük hörmət göstərib və Azərbaycanın dünyada nümunəvi tolerant ölkə imicini qazanmasında əsas roy oynayıb.

Beləliklə, bu gün respublikamızda hər bir vətəndaşın öz dini inancını qoruması, həmin dinin təbliğ edilməsi, dindarların rahat ibadətlə məşğul olma hüquqları Konstitusiya (18, 48-ci maddələr) ilə təsbit edilib və dövlət bu hüquqların təmin edilməsi üçün kifayət qədər optimal siyasət yürüdür. Azərbaycan cəmiyyəti dinin mənəvi dəyərlər sistemi olduğunu və onun siyasətə, dövlət işlərinə və sair bu kimi məsələlərə qarışdırılmamasının vacibliyini dərk edirlər. Bir sözlə Azərbaycanda etnik və dini fanatizmə cəmiyyətin münasibəti müsbət deyil.

Əlbəttə, ölkədə dini və ya etnik tolerantlıq ab-havasının saxlanılmasının təmin olunması olduqca vacib məsələdir. Bu amil dövlətçiliyin qorunmasında və inkişafında önəmli rol oynayır. Lakin, etnik və dini azadlıqlar insanların zərərli təriqətləri, seperatist qrupları müdafiə etməsinə səbəb olmamalıdır. Hansısa siyasi, etnik, dini, mədəni bağlılıq, cəmiyyət və dövlət maraqlarından üstün tutulmamalıdır. Azərbaycançılıq ideyası hər şeydən əvvəldə gəlməlidir.

Ortaq dəyərlər etnik, dini, siyasi, sosial, mədəni mənsubiyyətindən asılı olmayaraq bu ölkədə yaşayan hər bir insan üçün ümumi ehkamlara söykənir. Bu ortaq dəyərlərin birləşdiyi vahid ideologiyanın adı isə Azərbaycançılıqdır.

*Lalə Mehralı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

Səs

19 noyabr

Son səhifə

# Lionel Messi daha bir rekorda imza atıb



Futbol üzrə Argentina millisinin kapitanı Lionel Messi daha bir rekorda imza atıb. Qol.az xəbər verir ki, 33 yaşlı hücumçu yığmanın heyətində ən çox qələbə qazanan futbolçu adına yiyələnib. O, DÇ-2022-nin seçmə mərhələsinin Cənubi Amerika zonası üzrə 4-cü turunda səfərdə Peruya qalib gəldikləri görüşdə (2:0) rekorda nail olub. Bu, Messinin 142 görüşdə 85-ci qələbəsidir. O, 147 qarşılaşmada 84 dəfə qələbəyə sevinən sabiq komanda yoldaşı Xavyer Maskeranonun rekordunu yeniləyib. Millinin keçmiş kapitanı Xavyer Zanetti (142 oyunda 80 qələbə) bu göstəricidə 3-cüdür.

# Balotelli İngiltərədə oynamaqdan imtina etdi



***İtaliyal millisinin sabiq üzvü Mario Balotelli İngiltərə klubunun təklifini rədd edib. Bu barədə "The Sun" nəşri məlumat yayıb. 30 yaşlı futbolçunun "Barnsli" klubundan təklif aldığı bildirilib.***

Balotelli, Çempionşipdə oynamaq istəmədiyi üçün "Barnsli"nin təklifini qəbul etməyib. Tərəflər arasında ilkin danışıqlar yaxşı getsə də, daha sonra italyan hücumçu fikrindən daşınıb. Qeyd edək ki, hazırda klubsuz olan Mario Balotelli İtaliyanın D Seriyası təmsilçisi "Françakorta"da məşq edir.

# Payız mövsümündə C vitamini ilə zəngin qidalar daha çox qəbul edilməlidir



Havanın dəyişkənliyinə orqanizmin müxtəlif cür müqaviməti olur. İmmuniteti nəzarətdə saxlamaq üçün ən yaxşı yol düzgün və sağlam qidalanmadır. İnfeksion xəstəliklərin yayıldığı dövrdə nə ilə və necə qidalanmağa diqqət yetirmək, yəni orqanizm üçün lazım olan gündəlik karbohidrat, zülal, yağ balansını təmin etmək, vitamin və minerallarla zəngin olan qidalara üstünlük vermək lazımdır.

Həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "A, C və E vitaminlərinin çoxluq təşkil etdiyi qidalar antioksidantlarla zəngindir və bu da orqanizmdə sərbəst radikallarla mübarizə rolu oynayır. Toyuq, balıq və süd məhsullarında, E vitamini ilə daha çox zəngin olan çərəzlərdə çoxlu antioksidant maddələr var. Payız mövsümündə S vitamini ilə zəngin qidalar rasiona daha çox əlavə edilməlidir. Portağal, qreypfrut, mandarin, limon və digər sitrus meyvələri bu mövsümdə daha çox qəbul edilməlidir. Sağlamlıq üçün vacib hesab edilən protein yumurta, ət məhsulları və pendirdə daha çoxdur. Balıq məhsulları isə Omeqa-3 turşusu ilə zəngidir".

Onun dediyinə görə, Omeqa-9 daha çox zeytun yağının tərkibində olur. Çalışmaq lazımdır ki, ilin bütün fəsillərində zeytun yağından istifadə edilsin. Eyni zamanda yaşıl tərəvəzlər, süd və süd məhsulları də qida rasionunda əsas yer tutmalıdır. Şəkər immuniteti zəiflədən qidadır və ona görə də şirniyyatdan mümkün qədər az istifadə olunması məsləhətdir. Gün ərzində çoxlu maye qəbul edilməsi də orqanizm üçün xeyirlidir.

# Xınalıqda qar örtüyünün hündürlüyü 1 santimetrə çatıb!




***Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, noyabrın 18-i səhərədək ölkə ərazisində qeyri-sabit hava şəraiti davam edib, bəzi yerlərdə yağış, dağlıq rayonlarda qar yağıb.***

**Xidmətdən AZƏRTAC-a bildiriblər ki, düşən yağışın miqdarı Xaçmazda 18, Şabranda 8, Neftçalada 6, Şəki, Quba, Tərtər, Kişçayda (Şəki) 5, Lənkəran, Oğuzda 4, Ceyrançöl, Tovuz, Qusarda 3, Şəmkir, Balakən, Zaqatala, Xaltan, Bərdə, Mingəçevir, Sarıbaşda (Qax) 2, Göygöl, Naftalan, Gəncə, Mərəzə, Ağstafa, Qrız, Kürdəmir, Sabirabad, Astarada 1 millimetr olub. Bakıda və Abşeron yarımadasında müşahidə olunan faktiki hava şəraitinə gəlincə, Sumqayıta 10, Maştağa, Binəyə 4, Bakıya 2, Çilov adası, Neft Daşlarında 1 millimetr yağıntı düşüb.**

**Qar örtüyünün hündürlüyü Qrız, Sarıbaş, Xınalıqda 1 santimetr olub. Şimal küləyi əsib, arabir Salyanda saniyədə 18 metrədək güclənib. Havanın temperaturu noyabrın 17-də Bakıda iqlim normasından 1.5° aşağı olub. Belə ki, havanın maksimal temperaturu Bakı və Abşeron yarımadasında 9-13°, Aran rayonlarında 11-17°, dağlıq rayonlarda 6-8°, Naxçıvan Muxtar Respublikasında 12-17° isti təşkil edib.**

# 9 ayda Azərbaycanda 2548 əkiz doğulub



Yanvar-sentyabr ayları ərzində Azərbaycanda 95 min 399 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə bu göstərici 12,8 təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, doğulanların 53,3 faizi oğlan, 46,7 faizi isə qız uşaqlarıdır. Körpələrin 2548-i əkiz, 84-ü üçəm, dördü isə dördəmdir.

Doqquz ay ərzində ölkədə 46 min 995 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,3 təşkil edib.

# Mağazadan pul oğurlayan şəxs tutulub



Nizami rayonunda oğurluq edən şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki bu il yanvarın 22-də rayon ərazisindəki mağazaların birindən 2000 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən Salyan rayon sakini, əvvəllər məhkum olunmuş H.Gözəlov rayon polis idarəsinin 24-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırmalar aparılır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**